6 noyabr 2020-ci il
№37 (8901)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## İlham ƏLİYEV, Ali Baş Komandan

# Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!




# Biz zəfər çalacağıq!

## İşğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır

**İlham Əliyev** @azpresid... · 30 окт.
Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vecnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

**İlham Əliyev** @azpresid... · 2 nov.
Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşa Bulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

**İlham Əliyev** @azpresident · 4 nov.
Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

# Vətənimizin bütövlüyü naminə atdığınız cəsarətli addımlarınız gələcəyə olan inamımızı daha da artırdı

## Məktəblilər Ali Baş Komandan İlham ƏLİYEVƏ müraciət ünvanlayırlar



**Çox hörmətli Prezident, cənab Ali Baş Komandan!**

Mənim adım Cavid Şamoyevdir. 13 yaşım var və torpaqlarımızın azadlığı uğrunda döyüşmək istəyirəm. Yaşım az olsa da, əlimdən gələni əsirgəmərəm. Mənim qardaşım hərbi xidmətdədir. Mən də onun kimi Vətənimin keşiyində durmaq istəyirəm.

Əminəm ki, çox yaxın zamanda Siz başda olmaqla, Azərbaycan Ordusu qələbə qazanacaqdır. Sizə və qəhrəman əsgərlərimizə böyük uğurlar arzu edirəm.

Yaşasın Azərbaycan! Yaşasın Ali Baş Komandan!

Qarabağ Azərbaycandır!

Hörmətlə,

**Şamoyev Cavid Səbuhi oğlu,**
*Bakı şəhəri, Nərimanov rayonu, şagird*

---

**Əziz və hörmətli Prezidentimiz.**

Mənim adım Zeynəbdir. 5-ci sinifdə oxuyuram. Biz Sizin kimi Prezidentimizin olması ilə fəxr edirik. Çox sağ olun ki, torpaqlarımızı ermeni işğalçılarından azad edirsiniz. Biz ermənilərdən qorxmuruq, çünki bizim güclü Ordumuz var.

İnanıram ki, tezliklə Azərbaycan qələbə çalacaq. Allaha hər gün dua edirəm ki, Allah Sizi və əsgərlərimizi qorusun!

Mənim atam da birinci Qarabağ müharibəsində iştirak edib və əlil olub.

Qələbə bizimlədir, Qarabağ Azərbaycandır!

Yaşasın Prezidentimiz!

Hörmətlə,

**Nəsibzadə Zeynəb Anar qızı,**
*Goranboy rayonu, Boluslu kəndi, şagird*

---

**Hörmətli Prezidentim.**

Mən Masallı rayon Cəfər Cabbarlı adına 1 nömrəli məktəbin 9a sinif şagirdiyəm. Biz çox sevinirik ki, torpaqlarımız cəsur əsgərlərimiz tərəfindən azad olunur. Sizin uzaqgörən siyasətiniz və şücaətli addımlarınız xalqımız tərəfindən böyük rəğbətlə qarşılanır. Torpaqlarımız azad olunduqca şəhidlərimizin ruhu da şad olur. Fərqi yoxdur Yardımlı, ya Qarabağ, hamısı bizim üçün müqəddəsdir, Vətənimizdir.

Cənab Prezident, Siz və əsgərlərimiz ermənilərə layiqli cavab verməklə, Azərbaycan xalqının kim olduğunu onlara göstərdiniz. Bu gün Ordumuz qüdrətli addımlarla irəliləyir. İnşallah, üçrəngli ay-ulduzlu Bayrağımız Şuşada, Kəlbəcərdə, Laçında və işğal altında qalan digər ərazilərimizdə dalğalanar. Allahdan Sizə uzun ömür, cansağlığı arzulayırıq. Biz Sizinlə fəxr edirik.

Hörmətlə,

**Elçin Abiyev,**
*Yardımlı rayonu, Arus kəndi, şagird*

---

**Hörmətli Prezident, cənab Ali Baş Komandan!**

Sizi salamlayan əslən Şamaxı şəhərindən olan 8 yaşlı məktəblidir. Sizi və xalqımızı şanlı Ordumuzun və igid əsgərlərimizin cəbhədə qazandığı uğurlar münasibətilə təbrik edirəm. Vətənimizin bütövlüyü naminə atdığınız cəsarətli addımlarınız biz uşaqların, şagirdlərin gələcəyə olan inamını və ümidini daha da artırdı. Vətənimizlə daha çox fəxr etməyə başladıq. Bizim də borcumuzdur ki, Sizin bu sərkərdəlik qabiliyyətinizi öyrənək və gələcək nəsillərimizə ötürək. Biz məktəblilər Sizinləyik, İlham baba!

Qarabağ Azərbaycandır!

Hörmətlə,

**Şeydayev Tunar Baloğlan oğlu,**
*Abşeron rayonu, Aşağı Güzdək qəsəbəsi, şagird*

---

**Salam, möhtərəm cənab Prezident.**

Mən Şirvan şəhərində 9-cu sinifdə oxuyuram. Ermənilərin bizim torpaqlarımızı işğal etməsini heç vaxt qüruruma sığışdırmamışam. Ona görə ki, onlar bizdən həmişə qat-qat aşağı olublar, ancaq təəssüf ki, 30 ilə yaxındır torpaqlarımız işğal altında idi. Müzəffər Ali Baş Komandanımızın və rəşadətli Ordumuzun sayəsində işğal altında olan torpaqlarımızı azad edirik. Lazım gələrsə mən də Vətənimi, xalqımın şərəf və ləyaqətini qorumaq üçün vuruşmağa hazıram. Sizinlə və Ordumuzla fəxr edirəm. Allah Sizi qorusun. Amin.

Hörmətlə,

**Tağıyev Fərhad Etibar oğlu,**
*Şirvan şəhəri, şagird*

---

**Hörmətli Ali Baş Komandan, cənab Prezidentimiz.**

Mənim adım Aysudur, 9-cu sinif şagirdiyəm. Milli Ordumuzun belə müzəffər və güclü olması ilə qürur duyuram. Azərbaycan Ordusunun güclü olmasının səbəbi isə Sizsiniz. Bunun üçün Sizə təşəkkürümü bildirirəm. Sizin rəhbərliyinizlə, Ordumuzun igid əsgərlərinin gücü və bizlərin birliyi ilə hər gün bir neçə kəndimiz, şəhərimiz, strateji yüksəkliklərimiz işğaldan azad edilir. Vətən torpaqlarının azadlığı uğrunda mübarizə aparan, uğurlu hərbi əməliyyatlar keçirən şanlı Ordumuzun hər bir əsgərinə güc-qüvvət, böyük uğurlar diləyirəm.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və hər zaman Azərbaycan xalqının Prezidenti olmağınızı arzu edirəm.

İnşallah, yaxın günlərdə bütün torpaqlarımız işğaldan azad edilər.

Mən fəxr edirəm ki, azərbaycanlıyam və fəxr edirəm ki, Sizin kimi Ali Baş Komandanımız var!

Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Hörmətlə,

**Əliyeva Aysu Rüstəm qızı,**
*Salyan şəhəri, şagird*



## İlham ƏLİYEV, Ali Baş Komandan

# Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır

**“Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli Dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan bayrağına!”.**

## Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 23 fevral tarixli 225 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Tələbə-məzun” dövlət elektron məlumat sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin “Tələbə-məzun” dövlət elektron məlumat sisteminə qoşulmasını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 23 fevral tarixli 225 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 89, № 7, maddə 621; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2015, № 4, maddə 373, № 6, maddə 704, № 7, maddə 836; 2016, № 8, maddə 1384; 2017, № 5, maddə 805, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2306) ilə təsdiq edilmiş “Tələbə-məzun” dövlət elektron məlumat sistemi haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 6.10-3-cü bənd əlavə edilsin:

“6.10-3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi;”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 oktyabr 2020-ci il*

## Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair əlavə tədbirlər barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları”na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrində 2020-ci il 2 noyabr tarixindən tədris və təlim-tərbiyə prosesinin distant (məsafədən) formada təşkili təmin edilsin.

**2.** Müəyyən edilsin ki, bu Qərarın qüvvədə olduğu müddətdə sanitar-epidemioloji vəziyyətlə bağlı Azərbaycan Respublikasının baş dövlət sanitariya həkiminin və ya Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin gigiyena və epidemiologiya mərkəzlərinin müvafiq rəyləri əsasında Azərbaycan Respublikasının Təhsil Nazirliyi ayrı-ayrı inzibati ərazi vahidlərində fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin əyani formada aparılmasının bərpası və ya dayandırılması barədə qərar qəbul edə bilər.

**3.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən bu Qərarın 2-ci hissəsinə uyğun olaraq tədris və təlim-tərbiyə prosesinin əyani formada aparılmasının bərpası və ya dayandırılması barədə qərar qəbul edildiyi halda, tabeliyində təhsil müəssisələri olan digər icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və özəl təhsil müəssisələrinin təsisçiləri də tabeliklərində olan təhsil müəssisələrinə münasibətdə müvafiq qərarlar qəbul edə bilərlər.

**4.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi, tabeliyində təhsil müəssisələri olan digər icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və özəl təhsil müəssisələrinin təsisçiləri bu Qərarın icrası ilə bağlı zəruri tədbirlərin görülməsini təmin etsinlər.

**5.** Bu Qərar 2020-ci il dekabrın 1-dək qüvvədədir.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 29 oktyabr 2020-ci il*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi və “Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 21 yanvar tarixli 9 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” 2019-cu il 15 yanvar tarixli 7 nömrəli, “Dövlət və bələdiyyə tərəfindən yaradılan peşə təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi və “İlk peşə-ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 29 dekabr tarixli 359 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” 2019-cu il 26 fevral tarixli 65 nömrəli, “Bakı Dövlət Universitetinin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” 2019-cu il 16 aprel tarixli 172 nömrəli, “Dövlət və bələdiyyə tərəfindən yaradılan orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi və “Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 yanvar tarixli 7 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” 2019-cu il 13 may tarixli 219 nömrəli, “Azərbaycan Dövlət İqtisad Universitetinin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” 2019-cu il 22 avqust tarixli 365 nömrəli, “Azərbaycan Dillər Universitetinin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” 2019-cu il 10 sentyabr tarixli 401 nömrəli və “Ali təhsil müəssisələrində orta ixtisas təhsilinin təşkili Qaydası”nın təsdiq edilməsi haqqında” 2020-ci il 30 aprel tarixli 158 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

“Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 713 nömrəli Fərmanı ilə təsdiq edilmiş 4 nömrəli Əlavə - “Naxçıvan Muxtar Respublikasının icra hakimiyyəti orqanları tərəfindən lisenziya verilən fəaliyyət növlərinin siyahısı”nda, 2013-cü il 8 iyul tarixli 939 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi”ndə, 2014-cü il 26 dekabr tarixli 432 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi”ndə, 2015-ci il 17 aprel tarixli 502 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının Nizamnaməsi”ndə, 2015-ci il 21 dekabr tarixli 710 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi”ndə, 2012-ci il 9 iyul tarixli 680 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi”ndə, 2015-ci il 13 avqust tarixli 583 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin Nizamnaməsi”ndə və 2017-ci il 21 fevral tarixli 1254 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Bakı Mühəndislik Universiteti” publik hüquqi şəxsin Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 iyun tarixli 1056 nömrəli Fərmanının 9-cu hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 yanvar tarixli 7 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 151; 2020, № 4, maddələr 477, 489) ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin 1.12-ci bəndinə “lisenziya” sözündən sonra “(dövlət ali təhsili müəssisələri istisna olmaqla)” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 fevral tarixli 65 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 361, № 10, maddə 1677; 2020, № 4, maddələr 478, 489) ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə tərəfindən yaradılan peşə təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin 1.12-ci bəndinə “lisenziya” sözündən sonra “(dövlət peşə təhsili müəssisələri istisna olmaqla)” sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 172 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 765) ilə təsdiq edilmiş “Bakı Dövlət Universitetinin Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.8-ci bənd ləğv edilsin;

3.2. 3.1.13-cü yarımbənddən “, lisenziyası” sözü çıxarılsın;

3.3. 6.4-cü bənddə “, “Publik hüquqi şəxslər haqqında” və “Lisenziyalar və icazələr haqqında” sözləri “və “Publik hüquqi şəxslər haqqında” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 may tarixli 219 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 953) ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə tərəfindən yaradılan orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin 1.11-ci bəndinə “lisenziya” sözündən sonra “(dövlət orta ixtisas təhsili müəssisələri istisna olmaqla)” sözləri əlavə edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 avqust tarixli 365 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1470) ilə təsdiq edilmiş “Azərbaycan Dövlət İqtisad Universitetinin Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.8-ci bənd ləğv edilsin;

5.2. 3.1.13-cü yarımbənddən “, lisenziyası” sözü çıxarılsın;

5.3. 6.4-cü bənddə “, “Publik hüquqi şəxslər haqqında” və “Lisenziyalar və icazələr haqqında” sözləri “və “Publik hüquqi şəxslər haqqında” sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 sentyabr tarixli 401 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1555) ilə təsdiq edilmiş “Azərbaycan Dillər Universitetinin Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.8-ci bənd ləğv edilsin;

6.2. 3.1.13-cü yarımbənddən “lisenziyası və” sözü çıxarılsın;

6.3. 6.4-cü bənddə “, “Publik hüquqi şəxslər haqqında” və “Lisenziyalar və icazələr haqqında” sözləri “və “Publik hüquqi şəxslər haqqında” sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 158 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 504) ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində orta ixtisas təhsilinin təşkili Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2-ci hissənin birinci cümləsində (ikinci halda) “ixtisas” sözü “peşə-ixtisas” sözləri ilə əvəz edilsin;

7.2. 5-ci hissədən “və Azərbaycan Respublikasının Təhsil Nazirliyi (bundan sonra - Nazirlik) tərəfindən təsdiq edilən” sözləri çıxarılsın;

7.3. 7-ci hissədən “Nazirliyin təsdiq etdiyi” sözləri çıxarılsın.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 3 noyabr 2020-ci il*

# "Arzumuz qısa zaman ərzində ənənəvi təhsilə qayıtmaqdır"



## Emin ƏMRULLAYEV

### "Distant təhsil sadəcə olaraq yaranmış vəziyyətdə ən uyğun həll, çıxış yoludur"

**Təhsil naziri son bir ayda Ermənistanın silahlı qüvvələri tərəfindən şəhər və kəndlərimizə hücumlar nəticəsində 9 şagirdimizin həlak olduğunu təəssüflə bildirib. Cəbhə xəttindən uzaqda uşaqlarn, mülki obyektlərin təcavüzə məruz qalması bir daha Azərbaycanın adi bir düşmənlə yox, terrorçu dövlətlə mübarizə aparmasının bariz nümunəsidir. Bundan əlavə, 40-dan artıq məktəb, bu rəqəm artıq 50-yə yaxınlaşır, yararsız hala düşüb.**

**"Son 2 həftədə əsas dəyişikliklər bundan ibarətdir ki, həm ali və orta məktəb müəllimlərinin fəaliyyəti ilə bağlı müəyyən hazırlıq işləri görülüb. Xüsusilə ən böyük məsələ ölkədə bir sıra onlayn platformalar - TEAMS və Zoom kimi tanınan platformaların işinin bərpası istiqamətində böyük işlər görülüb. Aidiyyəti dövlət qurumları ilə birlikdə həmin platformaların fəaliyyəti üçün müvafiq testlər aparılıb".**

**"Amma eyni zamanda bir çox hallarda gördüyümüz bundan ibarətdir ki, məsələn internet var, ancaq insanların bir çox hallarda VPN-dən istifadə etməsi həmin platformaların işinə maneə yaradır. İstərdim bildirəm ki, növbəti həftələrdə həmin platformalar VPN-siz işləyəcək".**

Oruc MUSTAFAYEV

Dünyanı bürümüş pandemiya milli təhsil sistemləri üçün ağır fəsadlar törədib. Pandemiyanın davam etdiyi şəraitdə milyonlarla təhsilalanın məktəbdən kənarda qalması bütün ölkələrə xasdır və Azərbaycanda da bu vəziyyət davam etməkdədir. Görünən odur ki, pandemiya dövründə tədrisin təşkili məsələsi bütün ölkələr üçün eyni dərəcədə kritik əhəmiyyət kəsb etməkdədir. Artıq bir sıra ölkələrdə distant təhsil formalarının geniş tətbiq olunması göz qabağındadır.

Son günlər ölkəmizdə də pandemiyaya yoluxma hallarının artması nəzərə alınaraq Nazirlər Kabineti tərəfindən ölkənin bütün ümumtəhsil müəssisələrində distant təhsilin tətbiqinə başlanılması barədə qərar qəbul olunub. Distant təhsilin tətbiqini zəruri edən məqamlar, bu prosesin qaçılmazlığı, indiki şəraitdə əhəmiyyəti, tətbiq qaydaları və çətinlikləri barədə oktyabrın 30-da Təhsil naziri Emin Əmrullayevin iştirakı ilə Nazirlər Kabineti yanında Operativ Qərargahda keçirilən brifinqdə aydınlıq gətirildi.

#### Azərbaycan adi bir düşmənlə yox, terrorçu dövlətlə mübarizə aparır

Təhsil naziri son bir ayda Ermənistanın silahlı qüvvələri tərəfindən şəhər və kəndlərimizə hücumlar nəticəsində 9 şagirdimizin həlak olduğunu təəssüflə bildirib. Nazir qeyd edib ki, cəbhə xəttindən uzaqda uşaqlarn, mülki obyektlərin təcavüzə məruz qalması bir daha Azərbaycanın adi bir düşmənlə yox, terrorçu dövlətlə mübarizə aparmasının bariz nümunəsidir. Bundan əlavə, 40-dan artıq məktəb, bu rəqəm artıq 50-yə yaxınlaşır, yararsız hala düşüb. Orada tədrisin təşkili mümkün olmayıb. Ümumilikdə üzləşdiyimiz bu vəziyyətlə bərabər son həftələrdə koronavirus infeksiyasının yayılması da sürətlənib. Nazir əlavə edib ki, sentyabrın 15-dən dərslər bərpa olunarkən ilk həftələrdə dərslərin ardıcıl olaraq əyani təhsilə keçilməsi müvafiq plan əsasında həyata keçirilib. Sentyabrın 15-dən ibtidai, oktyabrın 1-dən 5 və 9-cu siniflər tədrisə cəlb ediliblər. Oktyabrın əvvəlindən pandemiya ilə bağlı vəziyyət kifayət qədər qənaətbəxş olduğundan bir çox bölgələrimizdə 2 mindən artıq məktəbdə tədrisi, demək olar ki, həftədə 5 dəfə əyani keçirmək mümkün olub. Lakin sonrakı dövrdə COVID-19-un daha sürətlə yayılması müşahidə edilib və eyni zamanda, təbii ki, ölkədə yaranmış hərbi vəziyyət, həm də internetin məhdudlaşdırılması bu prosesə mürəkkəblik qatıb. Bütün bu amilləri nəzərə alaraq müvafiq olaraq 19 oktyabrdan ölkədə bütün təhsil müəssisələrində tətil elan olunub.

#### Onlayn təhsil ən məqbul variant kimi

Emin Əmrullayev qeyd edib ki, tətil dövründə əsas məqsədimiz 2 həftəlik fasilədə verilmiş situasiyanı düzgün təhlil etmək, vəziyyəti və qeyri-müəyyənlikləri düzgün qiymətləndirmək, eyni zamanda da müəyyən hazırlıq işləri apararaq ən optimal, ən düzgün qərarların verilməsi olub. Son 10 gün ərzində aparılmış işlərin nəticəsi olaraq bir sıra hazırlıq işləri görülmüş, mümkün və optimal qərar verilmişdir. Operativ Qərargahın verdiyi qərara əsasən 2 noyabr tarixindən bütün təhsil müəssisələrinin fəaliyyətinin onlayn, distant qaydada keçirilməsidir. "Təbii ki, bu qərarın icrası öz-özlüyündə müəyyən çətinliklər yaradacaq. Mən əminəm ki, həm ailələr, şagirdlər, valideynlər nə qədər çətinliklərlə üzləşsələr də, ümumi vəziyyətin mürəkkəbliyini nəzərə alaraq növbəti bir neçə həftədə bütün ölkə ərazisində təhsili onlayn qaydada həyata keçirəcəyik və bu, müəyyən mənada irəliyə doğru bir addımdır".

Nazir əlavə edib ki, biz həm ictimaiyyət nümayəndələri, həm ümumilikdə məktəblərlə, müəllimlərlə də ünsiyyətdə oluruq. "Bir çox hallarda ümumi çətinliklərə baxmayaraq uşaqların tətil dövründə tamamilə təhsildən kənarda qalması ilə müqayisədə onlayn təhsil bir çox hallarda daha məqbul variant kimi qəbul edilir".

Nazir o cümlədən də ali təhsil müəssisələrinin rəhbərləri ilə də oxşar görüşlərin mütəmadi qaydada keçirildiyini deyib.

#### TEAMS və Zoom kimi platformaların işinin bərpası

Təhsil naziri tətil dövründə tədrisin yenidən təşkili ilə bağlı müəyyən hazırlıq işlərinin aparıldığını bildirib. "Son 2 həftədə əsas dəyişikliklər bundan ibarətdir ki, həm ali və orta məktəb müəllimlərinin fəaliyyəti ilə bağlı müəyyən hazırlıq işləri görülüb. Xüsusilə ən böyük məsələ ölkədə bir sıra onlayn platformalar - TEAMS və Zoom kimi tanınan platformaların işinin bərpası istiqamətində böyük işlər görülüb. Aidiyyəti dövlət qurumları ilə birlikdə həmin platformaların fəaliyyəti üçün müvafiq testlər aparılıb".

Aparılan işlərin nəticələri barədə məlumat verən Təhsil naziri qeyd edib ki, bu sahədə bir sıra problemlər var (internetin keyfiyyəti və s.) və biz onları yaxşı başa düşürük. "Amma eyni zamanda bir çox hallarda gördüyümüz bundan ibarətdir ki, məsələn, internet var, ancaq insanların bir çox hallarda VPN-dən istifadə etməsi həmin platformaların işinə maneə yaradır. İstərdim bildirəm ki, növbəti həftələrdə həmin platformalar VPN-siz işləyəcək".

Nazir vurğulayıb ki, istifadəçilər bu və ya digər formada həmin VPN-lərdən istifadə edərlərsə, bu platformaların işinə maneəçilik yarada bilər: "Xahişimiz budur ki, həmin insanlar bunu nəzərə alsınlar. Görünən budur ki, internetin keyfiyyəti ilə yanaşı bizim istifadəçi bacarığı ilə bağlı problemlər də var. Apardığımız testlərdən də məlum olur ki, bəzi insanların evdə interneti, yəni internetə çıxışı olsa da və ya, internetlə bağlı problemi olmasa da, onun kompüterində olan proqramın vaxtı keçdiyinə görə həmin öyrənmə platformasında çat işləyə bilmir". Bundan əlavə, bəzi hallarda istifadəçilər köhnə brauzerlərdən istifadə etdiyinə görə proqram işləmir. Bu məsələ əsas faktor olmasa da təxminən 10-15 faiz istifadəçidə internet olduğu halda belə, müəyyən mənada yuxarıdakı səbəblərdən problem yaşanır.

"Ona görə də bu istiqamətdə maarifləndirmə işini gücləndirməyə çalışırıq. Eyni zamanda da qeyd etməliyik ki, biz bir amildən deyil, bir neçə amildən asılıyıq. Bu, ilk növbədə, həm şagirdlərin, həm müəllimlərimizin sağlamlığıdır".

#### "Şagirdlərin öyrənməsi bizim üçün prioritetdir"

Nazir qeyd edib ki, sağlamlıqdan danışarkən biz cəbhədə yaranmış vəziyyətlə əlaqədar səhiyyə sisteminin üzərinə düşən təzyiqi də nəzərə almalıyıq. "Çalışmalıyıq ki, bu təzyiq minimal həddə olsun. Eyni zamanda da Təhsil Nazirliyi, təhsil işçiləri olaraq şagirdlərin öyrənməsi bizim üçün prioritetdir. Ona görə də verilmiş situasiyada öyrənmə prosesi ilə birbaşa əlaqəsi olan şagirdlərin ümumi psixoloji vəziyyət də nəzərə alınmalıdır".

Nazir əlavə edib ki, ölkədə təhsil sistemi yekcinc deyil, o öyrənənlər olaraq 3 yaşdan 25 yaşadək olan insanları əhatə edir. "Ona görə də biz təhsilverənlər olaraq müəllimlərimizin də yaş kateqoriyasını əvvəllər də nəzərə alırdıq. Yəni ümumtəhsil müəssisələrində nisbətən daha cavan müəllimlərin sayı üstünlük təşkil edirsə, ali təhsildə yaşlı müəllimlər çoxdur". Nazir vurğulayıb ki, bu səbəbdən də həm yoluxma hallarının sayının mindən yuxarı olması, həm digər məhdudiyyətlərin tətbiqinin paralel şəkildə davam etməsi distant təhsilin tətbiqini ən optimal və ən uyğun olmasını göstərir. "İnanırıq ki, cəmiyyət olaraq yenə də hər bir vətəndaş həm səhiyyə, həm sağlamlıq nöqteyi-nəzərindən, həm yaranmış mövcud hərbi vəziyyətdə ordumuza dəstək baxımından xalqımıza, cəmiyyətimizə, ölkəmizə töhfə baxımından öz məsuliyyətini daha da dərk edəcək, verilmiş qaydalara əməl etməklə pandemiya ilə bağlı olan situasiyanın yaxşılaşmasına öz töhfəsini verəcək. Biz unutmamalıyıq ki, pandemiya sonda insan davranışına bağlı olan bir məsələdir. İnsanların davranışı, sosial məsafə saxlaması, maskalardan istifadəsi, sanitar-gigiyena normalarına əməl erməsi, kütləvi tədbirlərdə mümkün qədər az iştirak etmək, ümumiyyətlə, məsələyə münasibət və davranış dəyişiklikləri bizi üz-üzə qaldığımız vəziyyətdən, çağırışdan daha səmərəli şəkildə çıxmağımıza kömək edə bilər".

⇨Ardı səh.6

# “Arzumuz qısa zaman ərzində ənənəvi təhsilə qayıtmaqdır”



## Emin ƏMRULLAYEV

## “Distant təhsil sadəcə olaraq yaranmış vəziyyətdə ən uyğun həll, çıxış yoludur”

**Nazir əlavə edib ki, üzləşdiyimiz vəziyyətdə 2 məqam var. Birincisi, bu, özözlüyündə, mürəkkəbdir, çətindir, öyrəşmədiyimiz bir vəziyyətdir. İkincisi isə eyni zamanda bir imkandır. Çünki zərurətdən irəli gələrək müəyyən dəyişikliklər baş verir. Biz artıq bunu görürük. Misal üçün, bir milyondan artıq şagirdi hətta ən ucqar kəndlərdə belə izləyə bilirik. Distant təhsildən istifadənin coğrafiyası birmənalı olaraq Azərbaycanda dəfələrlə genişlənib.**

**Yaxşı xəbər ondan ibarətdir ki, artıq TEAMS platformasının tamamilə Azərbaycan dilinə tərcümə prosesi yekunlaşıb və bütün funksiyaların Azərbaycan dilində də təhsilalanlara və təhsil işçilərinə təqdimatı mümkündür. Bu məsələ əvvəllər də qaldırılıb. Artıq Microsoft ilə aparılan iş nəticəsində bu məsələnin həlli mümkün olub.**

**Biz davranışımızı nə qədər tez dəyişəriksə, bir o qədər tez situasiyadan çıxarıq. Amma təhsil nailiyyətlərinin faydalılığı, keyfiyyətə təsirinin qiymətləndirilməsi sonrakı işdir. Biz bu prosesi qiymətləndirdikdən sonra təfsilatı şəkildə ictimaiyyətə bu barədə məlumat verə biləcəyik.**

⇦ Əvvəli səh.5

### “Qaydalara əməl etməklə sonda qalib olmaq olar”

Təhsil naziri son 7-8 ay ərzində pandemiyanın nəticələrinin qiymətləndirilməsi və təsirlərinin azaldılması istiqamətində müvafiq aidiyyəti dövlət qurumlarının müsbət təcrübə əldə etdiyini bildirib. “Bu gün biz davranışlarımızı dəyişə biliriksə, 10 gündən sonra daha yaxşı vəziyyətlə üz-üzə qala bilərik. Bu gün biz Təhsil Nazirliyi olaraq hər bir məktəblinin, şagirdin məktəbə gəlməsi və ənənəvi qaydada təhsil almasının tərəfdarıyıq. Amma verilmiş məhdudiyyətlərdə şagirdlərin sağlamlığı, müəllimlərimizin sağlamlığı, ümumiyyətlə, cəmiyyətimizin yaranmış vəziyyətdə ən düzgün və ən uyğun həll yolu ilə davranması da prioritetdir, bunu da unutmamalıyıq”.

Eyni zamanda, həmişə olduğu kimi, bu tip problemlərin həlli bir tərəfdən, bir insandan asılı deyil. Bu, yalnız birlikdə mümkündür. Çünki virus görünmür, hər bir insana yoluxa bilər, peşəsindən, vəzifəsindən asılı olmayaraq hamını yoluxdura bilir. “Bu mənada təhsilin, cəmiyyətin üz-üzə qaldığı, xüsusilə də xalqımız üçün şanlı bir dövrdə, bu qədər böyük bir məsələlərin həll olunduğu bir dövrdə mənə elə gəlir ki, hər bir vətəndaşımızın qarşımızda duran milli maraqlara nail olmaq baxımından ən vacib töhfəsi sadəcə olaraq qoyulmuş qaydalara əməl etməkdir. Qaydalara əməl etməklə çox şeylərə qalib gəlmək və sonda qalib olmaq olar”.

### “Məqsəd distant təhsilə keçid deyil”

Distant təhsilin əhəmiyyətinə gəlincə Təhsil naziri qeyd edib ki, distant təhsil dedikdə biz sistem olaraq distant təhsilə transformasiyadan danışmırıq, yəni məqsəd distant təhsilə keçid deyil. “Distant təhsil sadəcə olaraq yaranmış vəziyyətdə ən uyğun həll, yəni çıxış yoludur. Ola bilər ki, bu, minimaldır. Amma heç nədənsə minimal yaxşıdır. Yəni şərti olaraq biz uzunmüddətli tətil elan etməyimiz yaxşıdır, yoxsa, şagirdlərə teledərs, distant təhsil? Mənə görə bəzi müəllimlərin votçaplardan, ənənəvi olmayan yollardan şagirdinə nəsə öyrətmə həvəsi belə təqdirəlayiqdir”. Nazir əlavə edib ki, üzləşdiyimiz vəziyyətdə 2 məqam var. Birincisi, bu, öz-özlüyündə, mürəkkəbdir, çətindir, öyrəşmədiyimiz bir vəziyyətdir. İkincisi isə eyni zamanda bir imkandır. Çünki zərurətdən irəli gələrək müəyyən dəyişikliklər baş verir. Biz artıq bunu görürük. Misal üçün, bir milyondan artıq şagirdi hətta ən ucqar kəndlərdə belə izləyə bilirik. Distant təhsildən istifadənin coğrafiyası birmənalı olaraq Azərbaycanda dəfələrlə genişlənib. Düzdü, müəyyən mənada, təbii ki, istədiyimiz yerdə deyil, amma biz ora doğru gedirik. Mənim bu məsələyə baxışım bundan ibarətdir ki, əgər irəliyə doğru addım atırıqsa (bəli, bu, çətindir), irəliyə doğru atdığımız hər bir addım bizi arzuladığımız yerə çatdırır. Eyni zamanda inanıram ki, distant təhsil təcrübəsi əsasında müəllimlərimizdə də biliklər, bacarıqlar formalaşır. Mart-aprel ayları ilə müqayisədə dərslərə baxırıq, qiymətləndiririk, yəni distant təhsil yalnız müəllimin kamera qarşısına çıxıb danışması deyil, müəyyən mənada dərsin dizayn prosesini də fərqli edir. Biz aprel ayında bu sahədə daha az müəllim görürdüksə, inda hazırda yüzlərlə, minlərlə müəllim bu sualı özünə verir və dəyişiklik baş verir. Belə dəyişikliklər tez baş vermir, çünki müəyyən manada heç kim proqnozlaşdıra bilməzdi ki, ötən il bu vaxtı və ya fevral ayında bizim distant təhsilə bu qədər ehtiyacımız yaranacaq.

Nazir qeyd edib ki, hazırda biz prosesin ortasındayıq və növbəti həftələrdə yəqin ki, yoluxma hallarının daha çox artmasını müşahidə edə bilərik. Ən azından belə bir reallığı proqnozlaşdırmaq lazımdır və ilin sonuna kimi müəyyən mənada biz kifayət qədər mürəkkəb epidemioloji situasiya ilə üz-üzə qala bilərik. Yenə də bunun sadələşdirilməsi və həlli bizdən asılıdır. Biz davranışımızı nə qədər tez dəyişəriksə, bir o qədər tez situasiyadan çıxarıq. Amma təhsil nailiyyətlərinin faydalılığı, keyfiyyətə təsirinin qiymətləndirilməsi sonrakı işdir. Biz bu prosesi qiymətləndirdikdən sonra təfsilatı şəkildə ictimaiyyətə bu barədə məlumat verə biləcəyik. E.Əmrullayev bildirib ki, digər sahələr kimi, təhsil sahəsində də postpandemiya dövrünün özünəməxsus tədbirləri, özünəmsus fəaliyyətləri olmalıdır. Həmin fəaliyyət nəticəsində biz mövcud boşluqları aradan qaldırmağa çalışmalıyıq.

### Qiymətləndirmə qaydalarının müəyyənləşdirilməsi verilmiş situasiyadan asılı olacaq

Şagird nailiyyətlərinin qiymətləndirilməsi, bu sahədə mümkün yeniliklər barədə məsələyə toxunan E.Əmrullayev qeyd edib ki, qiymətləndirmə Təlimata uyğun olaraq Təhsil Nazirliyi tərəfindən həyata keçirilir. Qiymətləndirmə qaydalarının müəyyənləşdirilməsi isə verilmiş situasiyadan asılı olacaq. Bu sahədə müəyyən toplanmış təcrübənin olduğunu deyən nazir diqqətə çatdırıb ki, ötən il 2-ci yarımilin sonunda müəyyən tədbirlər, qiymətləndirmə qaydaları tətbiq edilib, şagirdlərin müəyyən formada, onlayn qaydada biliklərinin qiymətləndirilməsi həyata keçirilib. Ancaq birinci yarımilin sonuna hələ vaxt var, bu yanvar ayının sonundadır. İndi yanvar ayının sonu ilə bağlı hansısa proqnoz vermək çox çətindir. Amma fərqi yoxdur, dərslərin distant və ya ənənəvi qaydaya keçməsindən asılı olmayaraq yəqin ki qiymətləndirmənin vahid prinsiplər əasında keçirilməsi təmin ediləcək. “Nazirlik olaraq təbii ki, bizim arzumuz qısa zaman ərzində ənənəvi təhsilə qayıtmaqdır. Ancaq bu, mümkün olmalıdır ki, biz ona qayıdaq. Əvvəl də belə olub. Ancaq mərhələlərlə düşünürəm ki, əgər pandemiya ilə bağlı epidemioloji vəziyyət bizə imkan verərsə ölkənin müxtəlif bölgələrində, yəqin ki, daha tez biz ənənəvi təhsilə qayıdacağıq. Əvvəlki toplanılan təcrübədən - həftədə 2 dəfə - 3 dəfə əvvəl ibtidai təhsil, sonra yuxarı siniflər, müxtəlif bölgələrdə məktəb saylarına baxmaqla, yəni bütün bu alətlərdən istifadə edilməklə həyata keçiriləcək”.

Şagird yerdəyişməsi ilə bağlı səslənən sualı cavablandıran Təhsil naziri qeyd edib ki, bu sistemdə indiki qeyri-müəyyənliyə görə fasilə yaranıb. Amma növbəti həftələrdən təhsil distant formatda bərpa edildikdən sonra şagird yerdəyişmələrinin də həyata keçirilməsi ilə bağlı mövcud sistem texniki olaraq işə salına biləcək.

### Yaxşı xəbər ondan ibarətdir ki...

Təhsil naziri müəllimlərin TEAMS proqramına qoşulması, votçap üzərindən təhsilalanlarla ünsiyyət qurması məsələsinə toxunaraq qeyd edib ki, müəllimlərin votçapla tədris aparması məsələnin həll yolu deyil. Həmin linglər başqa yollarla (SMS və s) da valideynlərə göndərilə bilər. Eyni zamanda TEAMS tətbiqinin özünün də belə mesajlaşma funksiyası var. “Xüsusi qeyd edim ki, Təhsil Nazirliyi və aidiyyəti qurumların apardıqları birgə işin nəticəsi olaraq TEAMS yalnız və yalnız təhsil işçisi və təhsilalan hesabı üzərindən işləyəcək”.

E.Əmrullayev vurğulayıb ki, adi vətəndaş, yəni təhsillə bağlı olmayan vətəndaşın TEAMS-dan qeydiyyatdan keçməsi internetdə olan məhdudiyyətlərə görə mümkün olmayacaq. “Yaxşı xəbər ondan ibarətdir ki, artıq TEAMS platformasının tamamilə Azərbaycan dilinə tərcümə prosesi yekunlaşıb və bütün funksiyaların Azərbaycan dilində də təhsilalanlara və təhsil işçilərinə təqdimatı mümkündür. Bu məsələ əvvəllər də qaldırılıb. Artıq Microsoft ilə aparılan iş nəticəsində bu məsələnin həlli mümkün olub”.

Bölgələrdə internet şəbəkənin genişləndirilməsi məsələsinə toxunan Təhsil naziri qeyd edib ki, bu məsələnin həlli çox qısa zamanda baş vermir. “Bizdə ictimaiyyətdə belə bir bir fikirlər səslənir ki, hamıya planşetlər paylanılsa problem düzələr. Hər bir bölgəyə planşetlərin çatdırılması zaman baxımından elə də asan məsələ deyil, bu addım-addım həll olan məsələdir. Növbəti ildən bizim 100 məktəbə fiber optik internet çəkməklə bağlı planımız var və yaxud 10 mindən artıq müəllimin distant təhsilə cəlb edilməsi ilə bağlı layihə planlaşdırılır. Bütün bunları nəzərə alaraq bizim planımız ondan ibarətdir ki, bacardıqca bu istiqamətdə irəliyə doğru gedək”.

# Təhsil naziri videobağlantı vasitəsilə Abşeron rayon və Sumqayıt şəhər sakinlərini qəbul edəcək

Təhsil naziri Emin Əmrullayev 12 noyabr 2020-ci il tarixində saat 15:00-da Abşeron rayon və Sumqayıt şəhər sakinlərini canlı videobağlantı vasitəsilə qəbul edəcək. Qəbulda həmin rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Videoqəbula yazılmaq istəyən vətəndaşlar 30 oktyabr - 6 noyabr (saat 18:00-dək) 2020-ci il tarixlərində Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinin 146-1 nömrəli telefonuna ("Qaynar xətt" xidməti) zəng etməklə və ya nazirliyin rəsmi saytının "Vətəndaşların qəbulu" bölməsinə daxil olmaqla *(http://edu.gov-.az/az/contacts/request)* elektron qeydiyyatdan keçə bilərlər.

Videoqəbulun təşkil edilməsində əsas məqsəd vətəndaşların Təhsil Nazirliyinə müraciət imkanlarını müasir texnologiyalardan istifadə etməklə genişləndirmək, regionlarda yaşayanlara nazirliyin inzibati binasına gəlmədən vəzifəli şəxslərlə videobağlantı vasitəsilə birbaşa əlaqə imkanını yaratmaqdır.

Vətəndaşlar videoqəbulun keçirildiyi otağa qəbula yazılanlar siyahısı və şəxsiyyəti təsdiq edən sənədlər əsasında buraxılacaqlar.

Qəbulun keçirildiyi yerdə müvafiq sanitariya-gigiyena normalarına əməl olunmalıdır. Videoqəbulda bir müraciətlə bağlı eyni vaxtda birdən artıq şəxsin iştirakına icazə verilmir.

Videoqəbulda vətəndaşın müraciəti ilə bağlı lazımi sənədlərin təqdim edilməsi zərurəti yarandıqda, ona həmin sənədləri birbaşa qəbulun keçirildiyi qurumun səlahiyyətli işçisinə və ya elektron formada təqdim etmək imkanı olacaq. Həmin sənədlər araşdırılması üçün Təhsil Nazirliyinə yönləndiriləcək.

Araşdırma tələb edən müraciətlərin cavablandırılması vətəndaşın qeyd etdiyi elektron ünvan vasitəsilə elektron formada, yaxud müraciət edənin xahişinə əsasən poçt ünvanı ilə yazılı və ya əlaqə telefonu vasitəsilə şifahi qaydada həyata keçiriləcək.

# Azərbaycan və Türkiyə mütəxəssisləri təhsil və vətənpərvərlik mövzusunu müzakirə edəcəklər

Noyabrın 7-si saat 11:00-da Təhsil Nazirliyinin dəstəyi və T-NETWORK platformasının təşkilatçılığı ilə "Təhsildə vətənpərvərliyin yeri: reallıqlar və təkliflər" adlı onlayn seminar keçiriləcək.

Seminarda Azərbaycan və Türkiyə mütəxəssisləri tərəfindən "Vətənpərvərlik və onun meyarları nələrdir?", "Necə öyrədirik?", "Necə öyrətməliyik?" sualları ətrafında müzakirələr aparılacaq.

Seminar Təhsil Nazirliyinin rəsmi "Facebook" səhifəsi üzərindən canlı yayımlanacaq.




# Tərəfdaş şirkətlərdəki mövcud vakansiyalar peşə təhsil müəssisəsinin karyera mərkəzi tərəfindən təmin olunur

*Rəşad Xanlarov:*

"Yüksək nəticələrlə qiymətləndirilmiş təhsilalanların mövcud vakansiyalar üzrə işlə təmin olunması yeni tərəfdaşlarımızın bəhrələndiyi imkanlardandır"



**Ruhiyyə DAŞSALAHLI**

Azərbaycanda koronavirus infeksiyasının səbəb olduğu vəziyyətlə bağlı təhsildə tamamilə yeni mərhələyə qədəm qoyulub. Ənənəvi tədris metodunun tətbiqinin tamamilə mümkünsüz olduğu bu yeni mərhələdə ənənəvi olmayan metodlar sınaqdan çıxarılır. 2020-2021-ci tədris ili bütün təhsil müəssisələrində hibrid tədris metodu ilə başlasa da, vəziyyət yenidən tamamilə distant təhsilə keçidi zərurətə çevirdi. Ölkəmizdə yeni standartla təhsil verən Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində (BDPTM) distant təhsil çətinlik yaradırmı?

Müəssisənin rəhbəri Rəşad Xanlarov "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində yaranan çətinliklərin həlli olaraq maksimum imkanlarını səfərbər etdiklərini söyləyib. Onun sözlərinə görə, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində (BDPTM) noyabrın 2-dən etibarən Nazirlər Kabinetinin qərarına əsasən dərslərin tam şəkildə distant (məsafədən) formada keçirilməsinə başlanılıb: "Öncəki tədris ilinin ikinci yarımilində olduğu kimi yeni tədris ilinin birinci semestri də pandemiya dövrünə təsadüf etdiyindən məsafədən idarəedilən tədris modeli müvafiq dərs cədvəli üzrə təhsilalanların dərslərə cəlb olunması, tədris materiallarının onlayn platforma üzərindən ötürülməsi, günlük tapşırıqların verilməsi və onların yoxlanılması üzərində qurulub. İstifadə olunan proqramın rahatlığı və funksionallığını nəzərə almaqla tədrisin bu il də "Microsoft Teams" platforması üzərindən keçirilməsinə üstünlük verilib".

## Pedaqoji heyət üçün distant təlimlər

Oktyabrın 27-dən etibarən Sənaye və İnnovasiyalar üzrə BDPTM-nin metodist-təlimçiləri tərəfindən peşə liseylərinin pedaqoji heyəti üçün nəzərdə tutulan "Cisco" distant təlimlərə start verilib: "Keçirilən təlimlərin əsas məqsədi onlayn təlim, eləcə də əyani tədris zamanı təlim proseslərində yarana biləcək texniki problemlərin aradan qaldırılması və həll yolunun tapılmasıdır. Təlim proqramı əsasən kompüter avadanlıqlarının quraşdırılması, periferiya qurğularından istifadə, şəbəkə anlayışı və şəbəkə inzibatçılığı, İT-nin əsasları, kibertəhlükəsizlik istiqamətləri üzrə mövzuları əhatə edir".

R.Xanlarov qeyd edib ki, Mərkəzin metodist-təlimçiləri tərəfindən digər peşə müəssisələrinin pedaqoji heyəti üçün onlayn dərslərin aparılması və tədris materiallarının hazırlanması məqsədilə "Microsoft Teams" və "MS Office" paketi üzrə distant təlimlər həyata keçirildi. Bu təlimlərdən digər peşə müəssisələrindən olan 613 iştirakçı bəhrələnib.

## Kurslar üçün qeydiyyat prosesi davam edir

Bununla yanaşı, Mərkəzdə keçirilən qısamüddətli kurslar üzrə növbəti qrupların təşkili prosesinə də start verilib. Təşkil olunmuş qruplarda təlim kurslarının bütün istiqamətlər üzrə nəzəri və praktik tərtibatda olmaq şərtilə 3 ay müddətində həftədə 2 dəfə keçirilməsi planlaşdırılıb. Qeyd edək ki, bu tədris ilində də Mərkəzdə Avtomatika (PLC/HMI və sensor idarəetmə, PLC proqramlaşdırma), Mexanika (Mexanika təlimi, Solidworks, Mexanika CNC təlimi), Avtomobil (Avtomobil diaqnostikası və texniki qulluq), İKT (PHP Essentials, Java SE, Photoshop, Illustrator, Premiere), Elektronika (Elektronikanın əsasları), Elektrotexnika (Elektrik işi və ardıcıl idarəetmə), Sənayedə quraşdırma (Əl ilə elektrik qövs qaynağı üzrə təlim (SMAW), Qazla metal qövs qaynağı üzrə təlim (GMAW), GTAW (Volfram elektrodlu qaz qövs qaynağı üzrə təlim) və İnşaat (AutoCad proqram təminatı) istiqamətləri üzrə qısamüddətli kurslar mövcuddur. Hazırda kurslar üçün qeydiyyat prosesi davam edir.

Maraqlananlar üçün qısamüddətli kurslara qeydiyyat linkini təqdim edirik:

*<https://docs.google.com/forms/d/e/1FAIpQLSfvrnSLyXJrGSf35tyuCvHMnaAZylcuRcbG0Tuhj8AcM96_g/viewform>*

## Dövlət-özəl tərəfdaşlıq

R.Xanlarovun sözlərinə görə, Sənaye və İnnovasiyalar üzrə BDPTM-nin dövlət-özəl tərəfdaşlıq modelinə əsaslanan əməkdaşlıq çərçivəsində əlaqələri də gündən-günə genişlənir: "Son ay ərzində Mərkəzlə bir sıra "Azertexnolayn", "Dream Auto" (AUDI), "Mətanət A", AutoLux Azərbaycan (Ferrari, Lamborghini, Aston Martin, Land Rover, Dodge, Alfa-Romeo və digər), Technoil, "Okuklu İnşaat" kimi iri şirkətlər arasında yeni layihələrin həyata keçirilməsi üçün anlaşma memorandumları imzalanıb. Ümumilikdə Mərkəz 40-dan artıq tərəfdaş şirkətlə əməkdaşlıq edir. Sumqayıt Texnologiyalar Parkı (STP), "Cisco", "Mercedes-Benz", "Mitsubishi", "Improtex Motors" (BMW), "Optimal Electronics", "Toyota Azərbaycan", "Subaru", "Huawei", "Edu-Media", "Alstom", "Suez Groupe", "Tech Academy", "Honda", "Helind", "Mazda", "Azedunet", "ActiveGroup" (Bosch), Sumqayıt Texnologiyalar Data Mərkəzi (STDM), "Mars Academy", "Turox Aero Technologies", "Baku Roofing Company", "Cahan Motors", "Sigma Tecnical Services", "IKMA", "KKM Group" kimi qabaqcıl müəssisələrlər və eləcə də, Sənaye və ticarət palataları - AmCham, AHK, CCIAF kimi tərəfdaş şirkətlərlə təhsilalanların sadəcə peşə hazırlığı deyil, həm də gələcək karyerası üçün əhəmiyyətli sayılan razılaşmalar əldə etmişik. Həmin şirkətlərlə birgə fəaliyyət planında əksini tapan layihələr çərçivəsində master-klasların, bütün istiqamətlərdə təhsil alanlar üçün seminar və təlimlərin keçirilməsi, tədris proqramdakı modullara dair rəylərin verilməsi, təcrübə proqramları zamanı müəyyən olunmuş istiqamət üzrə texniki şöbələrin və mentorların müəyyən edilməsi də nəzərdə tutulub. Baza biliklərinə yiyələndikdən sonra istehsalat təcrübəsinə cəlb olunan və yüksək nəticələrlə qiymətləndirilmiş təhsilalanların mövcud vakansiyalar üzrə işlə təmin olunma imkanı da əməkdaşlıq çərçivəsində olan yeni tərəfdaşlarımızın bəhrələndiyi imkanlardandır".

R.Xanlarov qeyd edib ki, tərəfdaş şirkətlər müəssisələrində olan mövcud vakansiyalarla bağlı Mərkəzi mütəmadi olaraq məlumatlandırır və uyğun kadrların yönləndirilməsi peşə təhsil müəssisəsinin karyera mərkəzi tərəfindən təmin olunur.

# 74 ümumtəhsil məktəbində qayda pozuntuları aşkarlanıb

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin koordinatorluğu ilə 7-9 oktyabr tarixlərində 100 dövlət ümumtəhsil məktəbində monitorinq aparılıb. Monitorinq Təhsil Nazirliyinin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən ümumi təhsil müəssisələrində monitorinqin aparılması barədə" əmrin tələblərinə uyğun olaraq həyata keçirilib.

Monitorinq nəticəsində yoxlama aparılmış 74 ümumtəhsil məktəbində müxtəlif sayda qayda pozuntuları aşkar edilib. Qayda pozuntuları aşkar edilmiş ümumi təhsil müəssisələrinin rəhbərləri ilə bağlı əmək funksiyalarını keyfiyyətsiz yerinə yetirdiklərinə, əmək müqaviləsi ilə müəyyənləşdirilmiş vəzifələrin icrasına səhlənkar yanaşdıqlarına görə müvafiq qaydada intizam tədbirləri görülüb. Belə ki, 4 məktəb rəhbərinə sonuncu xəbərdarlıqla şiddətli töhmət, 24-nə töhmət verilib, 46-na isə xəbərdarlıq edilib.

Monitorinqin ölkəmizin müxtəlif regionlarında yerləşən və təsadüfi seçim əsasında müəyyən edilmiş digər məktəblərdə də həyata keçirilməsi planlaşdırılır.

# Təhsil Nazirliyinin Mətbuat Xidmətinin məlumatı

Məlumdur ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair əlavə tədbirlər barədə" 2020-ci il 29 oktyabr tarixli 430 nömrəli Qərarı ilə ölkəmizdə fəaliyyət göstərən bütün təhsil müəssisələrində 2020-ci il 2 noyabr tarixindən tədris və təlim-tərbiyə prosesinin distant (məsafədən) formada təşkili nəzərdə tutulub. Pandemiya ilə əlaqədar olaraq, dərslər "Virtual məktəb", eləcə də digər onlayn platformalar üzərindən keçirilir, həmçinin şagirdlərə "Dərs vaxtı" teledərsləri izləmək tövsiyə olunur.

Bununla belə, Təhsil Nazirliyinə bəzi özəl ümumi təhsil müəssisələrində şagirdlərin əyani formada tədrisə cəlb olunması ilə bağlı müraciətlər daxil olur. Bildiririk ki, bu Azərbaycan Respublikası Nazirlər Kabinetinin yuxarıda adıçəkilən Qərarına ziddir. Göstərilənləri nəzərə alaraq, tərəfinizdən Azərbaycan Respublikası Nazirlər Kabinetinin sözügedən Qərarına əməl edilməsi tələb olunur. Əks təqdirdə Azərbaycan Respublikası qanunlarının tələblərinə riayət edilməməsi nəticəsində müvafiq tədbirlər görüləcək.

# Tələbələrin və təhsil müəssisələrinin nəzərinə!

Təhsil Nazirliyi tərəfindən *https://e-telebe.edu.az* elektron portalı vasitəsilə müraciətlərin qəbulu noyabrın 11-dək davam edəcək. Müraciətlər üçün son tarix 10 noyabr 2020-ci il nəzərdə tutulur.

Tələbələrin qeyd edilən tarixədək *https://e-telebe.edu.az* elektron portalına müraciətlərini yekunlaşdırması, natamam müraciətləri tamamlayaraq təsdiq etməsi xahiş olunur. Təhsil müəssisələri tələbələrin bu barədə təkrar məlumatlandırılmasını təmin etməli, müraciətlərə müəyyən edilmiş qaydada baxmalı, hüququ yaranan tələbələr üzrə müraciətləri təsdiq etməlidir.

Qeyd edək ki, Təhsil Nazirliyi 30 sentyabr 2020-ci il tarixindən *https://e-telebe.edu.az* elektron portalı vasitəsilə cari tədris ilində ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olunmuş tələbələrin təhsil müəssisələrində elektron qeydiyyatına və sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsinə dair müraciətlərin qəbulunu aktivləşdirib. Hazırda müraciətlərin qəbulu və emalı prosesi davam edir.



# Qələbə soraqlı Azərbaycan Bayrağı

Göy, qırmızı, yaşıl. Milyonların sevdalısı olan müqəddəs Azərbaycan Bayrağı hər birimizin qürur mənbəyi, and yerimizdir. Bu müqəddəs bayraq uğrunda himnimizdə də deyildiyi kimi, minlərlə can qurban olub. Bu gün davam edən Vətən müharibəsi xalqımızın üçrəngli bayrağa olan sonsuz məhəbbətini, bayraq ətrafında necə sıx birləşməyi bir daha göstərdi. Mübariz xalqımızın vətəndaşları öz evlərini, avtomobillərini üçrəngli Azərbaycan bayrağına bürüdü.

Ali Baş Komandanın rəhbərliyi altındakı rəşadətli, müzəffər Azərbaycan ordusunda xidmət edən hər bir əsgərin arzusu azad olunmuş torpaqlarımıza yenidən Azərbaycan bayrağını sancmaqdır. Necə də gözəl hiss, duyğudur. Deyilmi?

## Hər bir əsgərin arzusu azad olunmuş torpaqlarımıza yenidən Azərbaycan bayrağını sancmaqdır

**Niyazi RƏHİMOV**

1918-ci il Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra hökumətin qarşısında duran əsas vəzifələrdən biri də bayrağın təsis edilməsi idi. Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Bayrağı haqqında ilk hökumət qərarı 1918-ci il iyunun 24-də verildi. Həmin qərara görə Azərbaycan bayrağı qırmızı materialdan, üstündə ağ aypara və qırmızı fonda ağ səkkizguşəli ulduzun təsviri verilmiş bayraq kimi qəbul edildi. Nəzərə çatdıraq ki, qərar qəbul edilərkən Azərbaycan hökuməti hələ Gəncə şəhərində yerləşirdi. 1918-ci il 15 sentyabrda Nuru paşanın başçılıq etdiyi Türk-İslam Ordusu Bakını düşmənlərdən azad etdikdən qısa müddət sonra-1918-ci il noyabrın 9-da hökumət tərəfindən göy, qırmızı və yaşıl rənglərdən, mərkəzdə ağ aypara və səkkizbucaq ulduzdan ibarət olan milli bayraq qəbul edildi. 1920-ci ildə çar Rusiyasının müstəmləkəçilik siyasətini davam etdirən bolşeviklər AXC-ni süquta uğratdıqdan sonra üçrəngli Azərbaycan bayrağı işğalçılar tərəfindən dəyişdirildi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu və banisi Məmməd Əmin Rəsulzadənin də dediyi kimi “Bir kərə yüksələn bayraq, bir daha enməz” sözləri sübutunu tapdı. Bayrağımız enmədi, əksinə daha da ucalarda dalğalandı.

### 70 ildən sonra yenidən dalğalanan üçrəngli bayraq

Hələ Sovet İmperiyası mövcud olduğu bir vaxtda 1990-cı ilin noyabrın 17-də üçrəngli Azərbaycan bayrağı 70 ildən sonra ilk dəfə öz qətiyyəti və iradəsi ilə azərbaycançılıq ideyalarını, məfkurəsini hər şeydən üstün tutan ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin iclasında qaldırıldı. Üçrəngli bayraq Naxçıvan Muxtar Respublikasının bayrağı kimi qəbul olundu.

### Üçrəngli, ay ulduzlu bayrağın rəmzləri

Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq göy, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir. Qeyd edək ki, Azərbaycan bayrağının idea müəllifi görkəmli şəxsiyyət Əli Bəy Hüseynzadədir.

**Göy rəng** - Azərbaycan xalqının türk mənşəli olması, türkçülük ideyası ilə bağlıdır.

**Qırmızı rəng** - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə, müasirləşməni, inkişaf istəyini ifadə edir. Qırmızı rəngin üzərində ortada aypara və səkkizguşəli ulduzun təsviri verilib.

**Yaşıl rəng** - İslam sivilizasiyasına, İslam dininə mənsubluğu ifadə edir.

**Ay-Ulduz** - Üçrəngli bayrağımızın rəngləri ilə bağlı fikirlər məlum olsa da, bayrağın üzərindəki aypara və səkkizguşəli ulduzun mənaları Xalq Cümhuriyyəti dövründə açıqlanmayıb. Alimlərin araşdırmalarına görə, ay-ulduz türk simvolları hesab olunur. Belə ki, qədim türk mifologiyasına görə, ulduzların sayı həmin xalqların taleyində rol oynayır. Ulduzlar səkkiz guşə kimi düzüləndə, həmin xalqın taleyində xoşbəxt hadisə baş verib. Ay-ulduz xoşbəxtlik rəmzi hesab olunur.

### Noyabrın 9-u ölkəmizdə Dövlət Bayrağı Günü qeyd edilir

2009-cu il noyabrın 17-də Azərbaycan Prezidenti cənab İlham Əliyev Dövlət Bayrağı Gününün təsis edilməsi ilə bağlı müvafiq Sərəncam imzaladı. Həmin Sərəncama əsasən, hər il ölkəmizdə noyabrın 9-u Dövlət Bayrağı Günü qeyd edilir. 2010-cu il sentyabrın 1-də ölkə başçısı İlham Əliyevin iştirakı ilə Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılışı oldu. Prezident İlham Əliyevin iştirakı ilə Azərbaycan Respublikasının dövlət bayrağı dünyanın ən hündür-162 metr bayraq dirəyində ucaldıldı. Dünyada ən hündür yerdə dalğalanan bayrağın eni 35, uzunluğu 70 metr, çəkisi isə təqribən 350 kiloqramdır. Qeyd edək ki, Ginnes dünya rekordları təşkilatı Azərbaycan dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib.

*İnanırıq ki, Azərbaycan əsgəri üçrəngli, şanlı Azərbaycan Bayrağını işğal altında olan bütün torpaqlarımızda qaldıracaq. Bayrağımız ən uca zirvələrdə dalğalansın.*

# “Şuşaya nəfəs qədər yaxınıq!”

Üzeyir Hacıbəyli adına Şuşa şəhər bir nömrəli orta məktəbi. Bu böyük tarixi və ənənəsi olan təhsil ocağının yüz doxsan yaşı tamam olur 2020-ci ildə. Yüz doxsan kiçik yaş deyil, ululuq göstəricisi, tarixi faktlarla doludur. Yüz doxsan ili vərəqləyəndə, nələrə şahid olub bu məktəb, deyə düşünəndə, yada çox şey gəlir. Bir az kövrək, bir az sevincli, bir az kədərli və dəhşətli. “Şuşaya bir nəfəs qədər yaxın” olduğumuz anda bu məqamlardan yan keçmə mümkün deyildi. Çünki bu, həm də Şuşanın bir nömrəli məktəbi ilə nəfəs-nəfəsə durmaq deməkdir. Sizcə yüz doxsan yaşlı, qocaman bir məktəbə, tarixi bir şəhərə bundan böyük hədiyyə ola bilərmi?

## Şuşa şəhər bir nömrəli tam orta məktəbin 190 illiyinə Qarabağ hədiyyəsi

**Jalə MÜTƏLLİMOVA**

Azərbaycan əsgəri, Azərbaycan ordusu və Ali Baş Komandanın rəhbərliyi ilə bu gün iki yüzdən artıq yaşayış məntəqəmiz erməni faşistlərindən azad edilib. Artıq Şuşa bir saylı məktəbinin də gözləri aydın olsun deyək.

Bu məqamda həm də məktəbin tarixinə qısa ekskurs etməkdə fayda var deyə düşünürəm. Xatırlayaq, hansı dönəmdən və necə keçib Şuşa bir nömrəli məktəbi?

Çar hökuməti Zaqafqaziyada dövlət məktəblərini açmazdan əvvəl xüsusi nizamnamə hazırlayaraq 1829-cu il avqustun 2-də təsdiq edib. Nizamnamədə nəzərdə tutulan şəhərlərdən birinciləri sırasında Şuşa qəzasının adı qeyd olunub. Şuşada Çar Rusiyasının ilk Qəza Məktəbi adlanıb bir nömrəli orta məktəb. Hələ o illərdə, Şuşa sakinlərinin özlərinin təhsil maraqları və şəhərin iqtisadi inkişafı bu qərarın verilməsində mühüm rol oynayıb. Azərbaycanda ilk qəza məktəbi 1830-cu ilin dekabrında açılıb.

Məktəbin ilk müdiri N.Mixaylovski Zaqafqaziyada tədris müəssisələri təsis etmək üçün 1829-cu il nizamnaməsindən çıxarışı oxuyub. Bu gün yüz doxsan illiyini qeyd edən bir nömrəli Şuşa məktəbi 1830-cu ildə ilk birinci sinfində on doqquz şagirdlə dərsə başlayıb. Beləcə Azərbaycanda ilk dövlət məktəbi sisteminin təməli qoyulub. Şuşada qəza məktəbi Azərbaycanda ilkin olaraq yaradıldığı kimi, fəaliyyət göstərdiyi bütün illərdə təlim-təhsilin keyfiyyətinə görə də öncüllərdən olub.

### Şuşa qəza məktəbində ilk kitabxana

1835-ci ilin mayında Zaqafqaziya məktəblərinin ikinci nizamnaməsi təsdiq edilir. Bu nizamnamədə Şuşa qəza məktəbini daha da təkmilləşdirmək nəzərdə tutulur. Təhsil ocağında ikinci və üçüncü siniflərdən başlayaraq rus dilinin qramatikası, coğrafiya, tarix, hesab, Azərbaycan dili, hüsnxət, rəsm fənləri tədris edilir. Hətta rus bölməsi yaradılır ki, bölmədə, Azərbaycan dili dərsinin tədrisinə də uzun mübahisələrdən sonra imkan verilir. Məcburi dərs saatı altı saat müəyyənləşir. 1848-ci ilin dekabrında Zaqafqaziya məktəblərinin yeni nizamnaməsi qəbul edildi. Artıq Azərbaycan dilinin öyrənilməsinə daha geniş yer verilirsə də, bu rəsmi sənədlərə salınmır. Şagirdlərin bədii zövqünü təmin və sinifdənxaric oxunu təşkil etmək üçün Şuşa qəza məktəbində ilk kitabxana yaradılır və ilk kitab sayı üç yüz bir ədəd olur. 1868-ci ildən tədris planına latın və Avropa dilləri daxil edilir.

### Zaqafqaziyada ilk şəhər məktəbi

Azərbaycanda ilk ümumtəhsil ocağı olan Şuşa qəza məktəbi, altı illik müzakirə və mübarizə sonrası, 1874-cü ildə, Zaqafqaziyada ilk şəhər məktəbi olur. Yeni məktəb daha yüksək səviyyədə təşkil olundu. Ən böyük üstünlüyü milli kadrların çoxaldılmasında idi. Belə ki, məktəbin pedaqoji heyətin əksəriyyəti Tiflis Aleksandriyski Müəllimlər İnstitutunu bitirən azərbaycanlılardan təşkil olunmuşdu. Onların sırasında sonradan ölkə təhsil tarixində adı qalan Mirzə Həsən Əmirov və Aslan bəy Əmirov kimi şəxslər var idi. Şuşada şəhər məktəbi şagird çoxluğuna görə də seçilirdi. 1876-cı ildə burada təkcə I sinifdə 70, 1877-ci ildə isə 160 nəfər şagird var idi. 1880-ci ildə məktəbin nəzdində xüsusi musiqi sinifləri açıldı. Şuşa şəhər məktəbi müəllim hazırlığında da müstəsna rol oynayıb. Məktəbi daha yaxşı qiymətlərlə bitirən şagirdlər, xüsusi olaraq rəhbərliyə təqdim edilir. Onlardan sadəcə bir imtahan götürüldükdən sonra, ibtidai sinif müəllimi kateqoriyasında tədrisə cəlb olunurdular. Belə mütəxəssislərdən biri, məktəbin tarixinə adı qızıl hərflərlə yazılan, Əbdüləli Muxtarov olub. Yüksək hazırlığı nəzərə alınaraq, onu 1896-cı ildə Qori Müəllimlər Seminariyası nəzdindəki Azərbaycan ibtidai məktəbinə müdir təyin edirlər. Daha sonra onun dəstəyi ilə Şuşa şəhər məktəbinin ilk buraxılışından bir neçə nəfər, 1879-cu ildə Qori Müəllimlər Seminariyasına daxil olur. Onların arasında tanınmış pedaqoq Əliş bəy Tahirov, Azərbaycan elmi-pedaqoji fikri tarixində xüsusi xidmətləri olan görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərli və tanınmış maarif xadimi Səfərəli bəy Vəlibəyov da var idi. XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Nəcəf bəy Vəzirov və bir çox məşhur simalar da ilk təhsillərini Şuşa (qəza) şəhər məktəbində alıb. Rus-tatar məktəbini oxumuş tanınmış pedaqoq Mirzə Xosrov Axundzadə də bir nömrəli Şuşa məktəbinin yetişdirdiyi kadrlardan sayılır.

### Tanınmış məzunlar

...1966-cı ildə bir nömrəli məktəbdən yeni bir təhsil ocağı - 4 nömrəli orta məktəb yarandı. 1 nömrəli Şuşa şəhər orta məktəbi isə yeni binaya köçürülür. Məktəbə Üzeyir Hacıbəylinin adı verilir. Əməkdar müəllimlər Zəhra Məmmədova, Məmməd Zöhrabov, Nisə Şəfiyeva, Gülarə Məmmədova məktəbin həm məzunları, həm də müəllimləri olublar. Akademiklər Lətif İmanov, Səttar Əsədov, Paşa Rüstəmov, Cəlal Allahverdiyev, elmlər doktorları Validə Yusifzadə, Sabir Rüstəmov, Əbülfət Rüstəmov, Cəlal Şükürov, Sayalı Tağıyeva, Əkbər Ağayev, Kamran Məmmədov, Sovet İttifaqı Qəhrəmanı Xəlil Məmmədov da Şuşa məktəbinin yetirmələridir. Yubilyar məktəbin məzunları sırasında Moskvada, Kiyevdə və digər şəhərlərdə oxuyan, elmi laboratoriyalarda çalışanlar da çox olub. Onlardan biri də Ukrayna Milli Elmlər Akademiyasında şöbə müdiri işləyən texnika elmləri doktoru, professor Nadir Əlişovdur. Elm sahəsində əldə etdiyi nailiyyətlərə görə onun adı akademik B.Y.Patonla, J.K.Paxodiya ilə yanaşı çəkilir.

### Ümummilli lider Heydər Əliyevin tarixi xidməti

1982-ci ilin yanvarında Şuşa şəhər 1 nömrəli orta məktəbin 150 illik yubileyinin qeyd olunması haqqında Azərbaycan KP MK Bürosu qərarını imzalayıb və bu qərar əsasında təhsil ocağının yubileyi təntənəli şəkildə keçirilib. Yeri gəlmişkən, qeyd edək ki, bu qərarın verilməsinə qarşı duranlar sırasında ermənilər çoxluq təşkil edib. Heydər Əliyev həmin tarixi qərarın verilməsinə nail ola bilib. Bir nömrəli orta məktəb yarandığı vaxtdan Şuşa şəhərində öz fəaliyyətini fasiləsiz olaraq davam etdirib. Məktəbdə hər cür avadanlıqla təmin olunmuş 24 fənn kabineti, laboratoriya, 2 linqafon kabineti, maşınşünaslıq kabineti, gənclərin hərbi çağırışa qədər hazırlıq kabineti, zəngin kitabxana, geniş idman, akt zalı, yeməkxanası olub.

1992-ci ilin may ayınadək hər şey beləcə, yüksək səviyyədə davam edir. Ta ki, işğala, ədalətsizliyə uğradığımız zamana qədər. 1992-ci ildən bir nömrəli Şuşa məktəbi Bakı şəhəri, Yasamal rayonu, 38 nömrəli orta məktəbin binasında, onun maddi-texniki bazasından istifadə etməklə, ikinci növbədə fəaliyyət göstərdi.

2010-cu ildə Prezident İlham Əliyevin məktəbin 180 illik yubileyinin dövlət səviyyəsində təntənəli şəkildə keçirilməsi barədə sərəncamı həm məktəb kollektivi, həm şuşalılar üçün böyük stimul oldu. Prezidentin 2011-ci il sentyabrın 14-də imzaladığı sərəncam isə bir nömrəli Şuşa məktəbi üçün hətta ikinci həyat sayıla bilər. Belə ki, Bakı şəhəri, Yasamal rayonunda inşa edilən Şuşa şəhər 1 nömrəli tam orta məktəbi 2015-2016-cı tədris ilində bütün təhsil infrastrukturu ilə həmin ərazidə yaşayan məcburi köçkün və yerli ailələrin övladlarının istifadəsinə verildi. Bu, Azərbaycan dövlətinin, ölkə Prezidentinin, Heydər Əliyev Fondu və Birinci vitse-prezident Mehriban Əliyevanın şuşalılara və Şuşa bir nömrəli məktəbinə böyük töhfəsi idi.

### Son söz əvəzi

Şuşa məktəbinin onlarla məzunu respublikanın və dünyanın müxtəlif ali məktəblərinə daxil olur. Yəni harada fəaliyyət göstərməsindən asılı olmayaraq məktəb illərdir öz adını və nüfuzunu saxlamağa davam edir. Bu gün Bakıda məskunlaşsa, yüz doxsan yaşını məcburi köçkün kimi qeyd etsə belə adındakı və tarixindəki əzmi özündədir bu təhsil ocağının. Ali Baş Komandanın da qeyd etdiyi kimi, “Şuşaya bir nəfəs qədər yaxınlıqda” olması yüz dosxan illiyi əvvəlkilərdən çox fərqli edib həm də. Bu, böyük mükafatdır. Yəni, 191-ə, yeni on illiyin ilk birinə, Şuşayla addım atmaq kimidir. Bu xarı bülbülün, Cıdır düzünün, Topxana meşəsinin və Şuşanın bir nömrəli məktəbinin tarixi binasının işğaldan azadlığına bircə nəfəs qədər məsafəmiz qalib deməkdir. Odur ki, yüz doxsan birə səninlə Şuşada görüşməklə başlamaq gözəl olacaq qocaman təhsil ocağımız. O ümidlə əzmini, nüfuzunu, adını qoruduğun üçün sənə və səni qoruyan hər kəsə təşəkkür də düşür. Şuşada görüşənədək...

# Ali təhsilə töhfə

Oruc MUSTAFAYEV

Məlumdur ki, qloballaşma dövründə hər bir ölkənin inkişafı yüksək ixtisaslı, müasir səriştə və bacarıqlara sahib insan kapitalından, onun intellektual səviyyəsindən çox asılıdır. Bu mənada ali təhsil sistemi qarşısında davamlı inkişafın əsasını təşkil edən elmi-tədqiqatçıların hazırlanması kimi mühüm bir vəzifə artıq zərurətə çevrilib. 2018-ci ilin noyabrında Prezident İlham Əliyev tərəfindən imzalanmış “2019-2023-cü illər üçün Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın icrasına başlanılması isə bizi bu hədəflərə yaxınlaşdırır. Ölkəmizdə yüksək hazırlıqlı mütəxəssislərin hazırlanmasına mühüm töhfə kimi qiymətləndirilən bu proqramın mühüm istiqamətlərindən biri Azərbaycan Dövlət Pedaqoji Universiteti və ABŞ-ın nüfuzlu Corc Vaşinqton Universiteti arasında təhsilin idarə edilməsi üzrə beynəlxalq ikili diplom proqramlarının təsis olunmasıdır. Dövlət Proqramında nəzərdə tutulan hədəflərə çatmaq üçün 2020-ci il yanvarın 31-də Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) və ABŞ-ın Corc Vaşinqton Universiteti arasında ikili diplom proqramı üzrə sazişin imzalanma mərasimi keçirilib.

ABŞ tərəfi ilə aparılan danışıqlara əsasən, proqram çərçivəsində 2020-2021-ci tədris ilindən etibarən ADPU-da magistratura pilləsinə qəbul həyata keçirilib. Abituriyentlər qəbul üçün ilk olaraq Dövlət İmtahan Mərkəzi (DİM), daha sonra Corc Vaşinqton Universiteti tərəfindən təşkil edilən imtahanlarda iştirak ediblər. İlk mərhələdə 25 tələbə proqrama qəbul olunub. Magistratura pilləsində təhsilin 2 il müddətinə ingilis dilində aparılması nəzərdə tutulur.

Artıq proqrama qəbul olunan ilk tələbə qrupu üçün tədris başlayıb. Təqaüdçülər ilk olaraq Corc Vaşinqton Universitetinin təqdim etdiyi ilk kurslardan keçiblər. “Azərbaycan müəllimi” qəzetinə verdiyi müsahibədə Corc Vaşinqton Universitetinin doktorantı, proqram rəhbəri Sevinc Məmmədova ilk dərs barədə təəssüratlarını oxucularımızla bölüşür.

## Corc Vaşinqton Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universiteti ikili diplom proqramının icrasına başladı




– *İkili diplom proqramı çərçivəsində dərslər başlayıb. Proses necə keçir?*

– Oktyabrın 19-dan noyabrın 2-dək Azərbaycan Dövlət Pedaqoji Universiteti və Corc Vaşinqton Universiteti arasında ikili diplom proqramının həyata keçirilməsi çərçivəsində tədris prosesi keçirilib. Təəssüflər olsun ki, biz ilk dərsi onlayn təşkil etməli olduq. Əslində isə tədrisin üz-üzə keçirilməsi nəzərdə tutulmuşdu. Düşünürəm ki, ilk dərsimiz kifayət qədər uğurlu keçdi. Formata uyğun olaraq dərslərin amerikalı professorlar Bakıya gələnə qədər bir həftə onlayn keçirilməsi nəzərdə tutulmuşdu. Sonra tələbələr növbəti dərsə qədər 2 həftə ərzində öz tapşırıqlarını yerinə yetirməli idilər. Lakin pandemiya ilə əlaqədar olaraq tədrisin təşkilində dəyişiklik etdik və bütün dərslər onlayn keçdi. Tələbələr gün ərzində 3 saat dərsə qoşulurlar və bu müddət ərzində tədris prosesində iştirak edirlər. Tələblərin prosesdə iştirakından, müzakirələrdə fəallığından belə görünür ki, onlar dərslərdən çox zövq alırlar. Professorlardan yeni mövzular öyrənmək, onları Azərbaycanla əlaqələndirmək, Azərbaycanın gələcək təhsil strategiyalarında hansı dərslərdən, proqramlardan istifadə edilməsi təcrübəsini, onun daha yaxşı planlaşdırılması yollarını öyrənirlər. Düşünürəm ki, tələbələr dərsdən çox faydalandılar.

– *Tədris hansı formatda aparılır?*

– Formata gəlincə, dərslər Zoom platforması üzərindən aparıldı. Bundan başqa, biz “Blackboard” deyilən onlayn platformadan da istifadə etdik. Bundan əlavə, tələbələr diskussiyalarda iştirak etməli və öz fikirlərini bölüşməli idilər. Digər tərəfdən tələbələr hər gün üçün təqdimatlar hazırlayırdılar. Amerikalı professorla bir saat müzakirə aparırdılar. Daha sonra tələbələr qruplara bölünürdü. Təbii ki, amerikalı professor və mən, eləcə də Corc Vaşinqton Universitetinin doktorantı Çilanay Səfərli tələbələrlə tədris prosesində diskussiyaları idarə edirdik.

– *İlk dərs hansı mövzuda oldu?*

– İlk dərsimiz təhsil siyasətinin dizaynı idi. Qeyd etməliyəm ki, bu, çox ağır fəndir. Adətən bu fənni öyrənmək bir neçə il vaxt aparır. Ancaq biz tələbələrə onun bir az sadələşdirilmiş formasını təqdim etdik. Bu fənn təhsil siyasətinin özəyini təşkil efir. Onu öyrənməsələr, tələbələr təhsil prosesinə, qiymətləndirmə prosesinə dair dərslər götürə bilmirlər.

Məncə, ilk dərs çox yaxşı keçdi. Tələbələr təhsil siyasətinin dizaynı haqqında çox mövzular öyrəndilər. Qeyd etməliyəm ki, təşkil olunan hər bir dərs daha çox praktiki alətlərin hazırlanması, onların təhsil prosesində işlənməsi üzrə qurulub. Məqsəd təkcə nəzəri biliklərə fokuslanmamaqdır. Bizim məqsədimiz də ondan ibarətdir ki, tələbələrə təkcə nəzəri biliklər öyrətməyək, həm də praktiki alətlər öyrədək ki, onlar işə döndükləri zaman o alətlərdən asanlıqla istifafə edə bilsinlər. Bu, bizim birinci dərsimiz idi. İkinci dərsimiz dekabrın ilk həftəsi üçün planlaşdırılır. Onu da qeyd edim ki, biz ADPU ilə işimizi koordinasiya etmişik. Bir fənni biz (Corc Vaşinqton Universiteti), digər fənni onlar (ADPU) tədris edir. Növbəti dərsimiz beynəlxalq təcrübə və proqramların öyrənilməsi və onun Azərbaycan şəraitinə uyğunlaşdırılaraq geniş strategiya, siyasətin yaradılması və icrasıdır.

Onu da qeyd edim ki, biz çox narahat edik ki, dərsləri necə keçirəcəyik? Ancaq tələbələr dərsdə çox yaxşı iştirak etdilər. Bu qrupun özəlliyi ondadır ki, onlar ayrı-ayrı sektorlardan gəlirlər. Yəni, əksəriyyəti müəllim, iqtisadçı kimi işləyir. Ona görə də hər tələbə tədris prosesinə bir yanaşma gətirir. Bu isə tədris prosesini daha maraqlı və çoxşaxəli edir, eyni fikirlər olanda, eyni fikirlər bölüşüləndə dərs prosesi o qədər də maraqlı olmur. Lakin fikirlər müxtəlif olanda, o tədrisə kifayət qədər güc verir və dərsi daha da maraqlı edir.

Düşünürəm ki, dərs prosesi tələbələr üçün maraqlı keçir. Onlar Amerika professorlarından yeni fikirlər, yeni ideyalar, yeni konsepsiyalar öyrənirlər. Öyrəndiklərini öz təcrübələri ilə birləşdirməklə tədris prosesini daha da maraqlı edirlər.

– *Tələbələrimizin tədris prosesinə adaptasiyası, fəallığı barədə nə deyərdiniz?*

– Tələbələr gözlədiyimizdən də fəaldır, dərslərdə çox aktiv iştirak edirlər. Vaxtında dərslərə qoşulur və öz fikirlərini bildirirlər. Təhsil sahəsindəki dəyişikliklərlə bağlı çox maraqlı fikirlər - təhsildə hansı proqramlar həyata keçirilir, təhsil sistemi daha da güclənə bilər və s. fikirlər irəli sürürlər. Ona görə də düşünürəm ki, tələbələrin fəallığı yüksək səviyyədədir. Adaptasiya çox asan oldu. Ola bilsin ki, tədris onlayn formatda olduğuna görə bir gün çətinlik çəkdilər. Ancaq sonradan tələbələrimiz çox asanlıqla tədris prosesinə uyğunlaşa bildilər. Onlar fəallıq göstərir, daim professorlarla əlaqədədirlər, öz fikir və ideyalarını bölüşürlər. Bizim dərsdə hər tələbə qarşısında təhsil siyasətini dizayn etmək tapşırığı durur. 25 təhsil siyasəti nümunə kimi götürülür. Hər tələbə bu nümunələrdən birini götürür. Onun əvvəlcə dizaynı, qiymətləndirmə prosesi yazılı şəkildə təqdim edirlər. Tələbələrin fəallığı və onların yazdıqları fikirlər həm professorları, həm də məni çox yaxşı təəccübləndirdi. Tələbələrimiz tapşırıqları ən yüksək keyfiyyətlə yerinə yetirdilər, nəticələr olduqca yüksək idi.

Onu da qeyd edim ki, Corc Vaşinqton Universiteti bu proqramın başlanmasına çox yüksək diqqət və dəstək göstərir. Biz çox həyəcanlı və narahat idik, pandemiya səbəbindən tədris prosesinin vaxtı uzadılmışdı. Proqramın reallaşdırılmasına bir ay gec başladıq. Ancaq çətinliklərə baxmayaraq, prosesin başlanmasına çox sevindik. Ümid edirik ki, proses çox yüksək səviyyədə davam edəcək. Və növbəti semestr, gələn il üçün tədrisi üzbəüz keçirəcəyimizə ümid edirik. Corc Vaşinqton Universiteti ADPU ilə qarşılıqlı əməkdaşlığı çox yüksək qiymətləndirir və belə bir tərəfdaşının olmasına çox sevinir.

Xüsusi təşəkkürlərimizi Təhsil Nazirliyinə bildiririk. Təhsil Nazirliyinin bu prosesdə dəstəyi bizim üçün çox önəmlidir.

Qeyd edək ki, proqramın əsas məqsədi qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, təhsilin idarəedilməsi sahəsində Azərbaycanda yeni nəsil mütəxəssislər yetişdirmək, bu sahədə Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərini beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirməkdir. Proqram çərçivəsində tələbələr təhsil sahəsində siyasi təhlil və inkişaf proqramlarını hazırlamaq, mövcud layihələri tədqiqat alətləri ilə qiymətləndirmək, beynəlxalq təcrübəni öyrənmək kimi səriştələr əldə edəcəklər. Tədris Corc Vaşinqton Universitetindən dəvət olunan, eyni zamanda yerli müəllimlər tərəfindən aparılır. Sonda məzunlara həm Azərbaycan Dövlət Pedaqoji Universiteti, həm də Corc Vaşinqton Universitetinin diplomları veriləcək.



# BMU-da dron texnologiyaları üzrə mütəxəssis hazırlanacaq

## Ölkəmizdə ilk dəfə olaraq BMU-da ikili diplom proqramı çərçivəsində bu işə start verilir

Bakı Mühəndislik Universiteti (BMU) Koreyanın İnha Universiteti ilə birgə dron texnologiyaları üzrə mütəxəssis hazırlığına başlayır. Bu sahə üzrə mütəxəssis hazırlığının həyata keçirilməsi BMU ilə İnha Universiteti arasında cari ildən icrasına başlanılan ikili diplom proqramına əsasında gerçəkləşir.

Proqram çərçivəsində BMU-da İnşaat mühəndisliyi, İnformasiya texnologiyaları, Elektrik mühəndisliyi və Elektronika mühəndisliyi ixtisasları üzrə hazırki əmək bazarında daha çox tələb olunan bir sıra yeni ixtisas fənləri tədris olunacaq. Bu sırada Elektrik mühəndisliyi və Elektronika mühəndisliyi ixtisaslarında “Dron mühəndisliyi”nə aid dərslərin tədrisi aparılacaq. “Dron mühəndisliyi” fənninin tədrisi ilə yanaşı, “İnsansız avtonom elektron qurğuların idarə olunması”, “Video görüntülərin emalı” və s. fənlərin də tədrisi nəzərdə tutulur. Qeyd olunan əlavə fənlər “Dron mühəndisliyi”ndə daha çox istifadə olunur.

Sözügedən sahədə ixtisaslı kadrların hazırlanması geniş yayılsa da ölkəmizdə ilk dəfə olaraq BMU-da ikili diplom proqramı çərçivəsində bu işə start verilir. Tədris olunan həmin fənn hesabına gələcəkdə Azərbaycanın hərbi qüdrətinin daha da gücləndirilməsi istiqamətində “Dron mühəndisliyi” ixtisasının təşkili və qurğuların BMU-nun Texnoparkında prototiplərinin hazırlanması planlaşdırılıb.

BMU “Dron mühəndisliyi” ixtisasının hazırlanması istiqamətində xarici tərəfdaş universitetlər və transmilli şirkətlərlə də intensiv işlər aparır.

Qeyd edək ki, BMU ilə İnha Universiteti arasında bu ildən icrasına başlanılan ikili diplom proqramı çərçivəsində tədris olunacaq yeni ixtisas fənləri sırasına İnşaat mühəndisliyi üzrə Elementar geodeziya, Ekoloji hidravlika və laboratoriya, İnformasiya texnologiyaları mühəndisliyi üzrə İKT buraxılış layihəsi, İnteqrasiya edilmiş analoq dövrələr, Vizual proqramlaşdırılma, Elektron və Elektrik mühəndisliyi üzrə Avtonom elektromobil mühəndisliyi, Smart şəbəkə mühəndisliyi kimi fənlər də daxildir. Yuxarıda qeyd olunan ixtisaslarda təhsil alan tələbələr optimal enerji istifadəsi və tədarükünü təmin etmək, kəsilmə reaksiyaları, həmçinin bərpası üçün daha yaxşı planlaşdırma təmin etmək, yenilənə bilən enerji sistemləri, elektrikli nəqliyyat vasitələri şəbəkələri və ağıllı evlər kimi heterojen texnologiyaların inteqrasiyasını asanlaşdırmaq üçün qabaqcıl metod və təcrübələrə diqqət yetirə biləcəklər. Bununla yanaşı, onlar smart enerji şəbəkəsinin dizaynı, istismarı ilə bağlı müxtəlif mühüm mühəndislik problemləri barədə ətraflı informasiya əldə edəcəklər.

# Təhsildə Keyfiyyət Təminatı Agentliyi vətəndaşlara yeni elektron xidmətlər təklif edir

**Gülnarə İLHAM**

COVID-19 virusunun ölkə ərazisində aşkara çıxmasından bəri xüsusi karantin rejiminin tətbiqi qaçılmaz oldu. Məhz bu səbəbdən bəzi qurumlar, o cümlədən təhsil mühitində fəaliyyət göstərən bir çox müəssisələr də vətəndaşların lazımi xidmətlərə əlaçatanlığını təmin etmək məqsədilə alternativ xidmətlər təqdim etməyə başladı.

## Vətəndaşlara xidmət ünvanları

Təhsil Nazirliyinin tabeliyində Təhsildə Keyfiyyət Təminatı Agentliyində ölkə ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə müvafiq qərara uyğun olaraq, vətəndaşların qəbulunu 2020-ci il dekabrın 1-dək dayandırıb. Təhsil sahəsində dövlət xidmətlərinin göstərilməsini təmin etmək üçün bu dövr ərzində müraciətlər 146-1 Telefon Məlumat Mərkəzi, eləcə də *qebul@tkta.edu.az* və ya *info@tkta.edu.az* elektron poçt ünvanları vasitəsilə cavablandırılacaq. Əlavə olaraq, vətəndaşlara Agentliyin internet saytının *(www.tkta.edu.az)* “Mütəmadi verilən suallar” bölməsi ilə tanış olması tövsiyə olunur.

## Vətəndaşlar arayışları elektron qaydada əldə edə bilərlər

Vətəndaşlar, həmçinin xarici ali təhsil ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) elektron xidmətindən yararlana bilərlər. Belə ki, Agentlik noyabr ayından etibarən tanınma (nostrifikasiya) üzrə müraciət edən vətəndaşlara müraciətinin statusundan asılı olaraq müvafiq arayışları elektron qaydada əldə etmək imkanı da yaradır. Vətəndaşlar şəxsi kabinetlərinə daxil olaraq E-ərizə bölməsini seçməklə, generasiya olunmuş elektron arayışları PDF formatda əldə edə bilərlər. Bura “Sənədlərə baxılmasına dair e-arayış” və “Müsahibəyə dəvət olunmaya dair e-arayış”lar daxildir. Qeyd edək ki, bundan öncə vətəndaşlar qeyd olunan hər iki arayış növünü imzalı və möhürlü kağız daşıyıcıda əldə etmək üçün rəsmi şəkildə Agentliyə müraciət etməli olurdular.

Bununla yanaşı, cari ilin mart ayından etibarən mövcud vəziyyət nəzərə alınaraq, sənədlərinin icra statusu “Şəhadətnamə verildi” olaraq təyin olunan vətəndaşlara şəxsi kabinetlərinə daxil olmaqla onlara təqdim olunan şəhadətnamə sənədini elektron versiyada əldə etmək imkanı yaradılıb. Zərurət yarandığı təqdirdə, şəhadətnamələri fiziki kağız daşıyıcıda xidməti poçt vasitəsi ilə əldə etmək istəyən vətəndaşlar faktiki yaşayış ünvanlarını dəqiq şəkildə qeyd etməklə *info@tkta.edu.az* ünvanına rəsmi müraciət edə bilərlər. Əlavə olaraq, şəhadətnamələrin həqiqiliyini təsdiq etmək məqsədi ilə Agentliyin rəsmi internet saytına daxil olaraq, “ŞƏHADƏTNAMƏNİ YOXLA” bölməsinə keçid etməklə məlumat əldə etmək mümkündür.

# Sakit, dərsimiz başlandı...

## Təhsili evlərə gətirən “Virtual məktəb”

Sakit, dərsimiz başlandı... Bu ifadə hamıya yaxşı tanışdır. Adətən məktəbdə deyilir və hamı sinifdə tədris prosesinin başlanmasına ciddi əməl edərək fikrini dərsə yönəldir. Bu gün isə həmin ifadənin sadəcə ünvanı dəyişib. Belə ki, pandemiya dövrünü yaşadığımız bir vaxtda artıq həmin cümlənin bütün evlərdə bu dəfə məhz uşaqların dilindən eşitməyə bir növ adətkar olmuşuq. Əslində uşaqlar üçün dərsin məzmunu deyil, sadəcə dərsin keçirilmə formatı dəyişib ki, bu da koronavirus (COVID-19) infeksiyasına yoluxma sayının artması ilə bağlıdır. Bəli, uşaqlarımız yenə də “məktəbə” gedir, öz “siniflərində” doğma müəllimlərinin keçdiyi fənlər üzrə biliklər alırlar. Necə? Əlbəttə ki, “Virtual məktəb”in yaratdığı imkanlar sayəsində.

**Samirə KƏRİMOVA**

### Mövcud vəziyyətə uyğun düzgün qərar

Məlum olduğu kimi, Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən xüsusi karantin rejimi çərçivəsində bir sıra məhdudiyyətlərin tətbiq olunmasına qərar verilərək ölkə ərazisində xüsusi karantin rejiminin müddəti 1 dekabr 2020-ci il saat 06:00-dək uzadılıb.

Tətbiq olunan məhdudiyyətlərdən biri də xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrində 2020-ci il 2 noyabr tarixindən tədris və təlim-tərbiyə prosesinin distant (məsafədən) formada təşkil olunmasıdır. Ölkə üzrə bütün təhsil müəssisələrində dərslərin onlayn keçirilməsinə başlanıldı. Onlayn dərslərə keçid isə o qədər də çətin olmadı. Çünki Təhsil Nazirliyi tərəfindən hələ ötən tədris ilində pandemiyanın təhsilimizə vuracağı zərəri minimum dərəcədə azaltmaq məqsədilə bir sıra mühüm işlər həyata keçirildiyindən artıq bu sahədə kifayət qədər təcrübə mövcuddur. Martın 3-də ölkədə karantin rejiminin tətbiq edilməsi ilə bütün təhsil müəssisələri bağlananda ölkəmizdə 1 şagirdin belə təhsildən kənarda qalmaması Təhsil Nazirliyinin qarşısında duran ən prioritet məsələ idi. Çətinliklərin aradan qaldırılması üçün bir neçə fərqli strategiyaları nəzərdən keçirildi ki, bunlardan



ilki martın 11-də “Mədəniyyət” kanalında “Dərs vaxtı” layihəsinə start verilməsi, çox keçmədən isə “ARB Günəş”in də bu təşəbbüsə qoşulması oldu.

### Məsafədən tədris imkanlarını genişləndirən “Virtual məktəb”

Tədrisin həm onlayn, həm teledərslər vasitəsilə əlçatan olmasını təşkil etmək, eyni zamanda şagirdləri fasilə verilmədən tədris prosesinə cəlb etmək, ən əsası isə çox qısa zamanda “Virtual məktəb” layihəsini həyata keçirmək düşündüyümüz qədər də asan deyildi... Lakin nəticə etibarı ilə “Vitual məktəb” platformasını reallaşdırmaqla onu təhsilalanlar və təhsilverənlər üçün əlverişli və olduqca rahat, adından göründüyü kimi virtual təhsil məkanına çevrilməsinə nail olundu.

Cari ilin aprelin 2-dən Təhsil Nazirliyi tərəfindən start verilən “Virtual məktəb” layihəsinin ilk vaxtlar məqsədlərindən biri nazirlik tərəfindən yayımlanan teledərslərin interaktivliyini təmin etmək idisə, çox qısa bir müddətdən sonra onun fəaliyyəti genişləndi. Təhsil Nazirliyi və “Microsoft” şirkəti arasında əməkdaşlıq çərçivəsində həyata keçirilən layihə eyni zamanda ümumtəhsil müəssisələrinin şagirdləri üçün məsafədən tədris imkanlarını genişləndirmək məqsədini daşıyır. Onu da qeyd edək ki, şagird və müəllimlərin rahatlıqla qeydiyyatdan keçərək elmi biliklər, qiymətləndirmə və onlayn dərslərə çıxışını təmin edən “Teams” bazası üzərində qurulmuş “Virtual məktəb” layihəsi ölkənin ən iri milli onlayn platformasıdır. Hər bir şagird “Virtual məktəb” *(virtual.edu.az)* portalında qeydiyyatdan keçməklə təhsil aldığı məktəbdə onlayn sinifdə müəllimləri tərəfindən müvafiq fənlər üzrə keçilən dərslərdə iştirak edir. 2019-2020-ci tədris ilində istifdəyə verilən onlayn platformanın hazırkı dövrə qədər statistikasına görə qeydiyyatdan keçən təkcə şagirdlərin sayı 1 milyondan çoxdur, müəllimlərin sayı isə 112 minə qədərdir və hər iki tərəf bu layihədən aktiv istifadə edir.

Bu platformada həmçinin bütün elektron kitablar, videodərslər, əlavə təhsil proqramları və mərkəzləşdirilmiş test nümunələrini tapmaq mümkündür. Bütün bu resurslar üz-üzə görüşləri təmin etmək, tapşırıq və müzakirələri bir-birinə inteqrasiya etmək üçün vahid bir mərkəzdə cəmləşdirilib. Layihə çərçivəsində reallaşdırılan tədbirlərdən biri də həmin platforma üzərindən hər həftə şagirdlər arasında “Virtual əlaçı” müsabiqəsinin keçirilməsidir ki, artıq ötən tədris ilində 140-dan artıq şagird həmin müsabiqənin qalibi seçilib. Eyni zamanda “Virtual məktəb” hazırda ölkə daxilində əməkdaşlıq və birgə fəaliyyət üçün ən geniş onlayn platformaya çevrilib.

### Təhlükəsiz öyrənmə mühiti

“Virtual məktəb” şagirdlər üçün təhlükəsiz öyrənmə mühitidir. Yalnız Azərbaycanda məktəblərdə qeydiyyatdan keçmiş şagirdlər bu platformadan istifadəyə qoşula bilərlər. Eyni yoxlama prosesi müəllimlərə də şamil olunur. Burada məktəb sinifləri vasitəsilə şagirdlər müəllimləri və sinif yoldaşları ilə ünsiyyət qurmaq imkanına malikdirlər. Sinif müəllimi öz hesabını aktivləşdirdikdən sonra bütün şagirdlər mövcud olan siniflərə avtomatik olaraq qoşulur. Bu cür texniki tənzimləmə metodları müəllim və şagirdlərin bir-birini onlayn şəkildə rahatlıqla tapması və dərslərə qaldıqları yerdən davam etmələri üçün mükəmməl şərait yaradır.

“Virtual məktəb” həmçinin məsafədən tədris və təhsil üçün vacib olan ən effektiv imkanları geniş formada təqdim edir. Şagird və müəllimlər ana səhifədə göstərilən təlimatlar vasitəsilə əlaqə qura bilirlər.

Onu da qeyd edək ki, “Virtual məktəb”də müəllim və şagirdlər hər hansı bir uyğunsuzluğun baş verməməsi üçün öz dərs cədvəllərini birlikdə planlaşdıra bilərlər. Platformanın bu xüsusiyyətinin olması məhz ucqar bölgələrdə yaşayan və dərsə qoşulmaq üçün yalnız bir elektron alətdən istifadə edən ailələr tərəfindən razılıqla qarşılanıb. Layihənin yaratdığı imkanlardan biri də Tapşırıqlar və Qiymətlər imkanının buraya inteqrasiya edilməsidir ki, bütün bunlar da müəllimlərə müəyyən viktorinalar təşkil etməyə və verilmiş tapşırıqların qoyulan müddət ərzində uğurla təsdiqlənməsinə şərait yaradır.

“Virtal məktəb” layihəsinin üstünlüklərini və əhəmiyyətini qeyd edən mütəxəssislərin fikrincə bu zəruri bilik, vərdişlərin və kompetensiyaların qazanılmasında təhsil almaq istəyənlərin əsasən müstəqil və onlar üçün uyğun vaxtda, uyğun yerdən əldə etmək imkanlarının reallaşmasıdır. Layihə müəllim-şagird arasında virtual əlaqəni və biliyə əlçatanlığı təmin edir, tərəflər arasında qarşılıqlı məsuliyyəti artırır. Şagirdlərin dərs prosesi zamanı müzakirələrdə interaktiv iştirakını, tədrisin praktikliyini təmin edir. Digər üstünlüklərdən biri isə şagirdlərin tədris prosesində fikrini yayındıran telefonla oynamaq, danışmaq və s. neqativ vərdişlərin qarşısını almağa bilavasitə yardımçı olur. Həmçinin “Virtual məktəb”də övladı dərs keçən valideynin də imkanı var ki, tədris prosesinə müdaxilə etmədən uşağının dərsə hazırlığının, biliyinin hansı səviyyədə olmasını müəyyənləşdirsin.

### Yenilənərək Azərbaycan dilində olan “Virtual məktəb”

2020-2021-ci tədris ilinin ilk günündən etibarən respublika üzrə” Virtual məktəb” də qeydiyyatdan keçmiş təhsil müəssisələrinin direktorları artıq səhifələrində rəhbərlik etdikləri məktəbin tədris aparılan bütün siniflərini görə bilirlər. Bu, yeni tədris ilində tətbiq olunan yeniliklərdən biridir ki, direktor bütün siniflərə onlayn nəzarət etmək imkanına malikdir.

Tətbiq edilən digər yeniliklərdən biri də “Virtual məktəb”in fəaliyyətinə nəzarətin gücləndirilməsi ilə bağlı bilavasitə həmin işə məsul olan aidiyyəti qurumlar üçün nəzarət mexanizminin olmasıdır ki, bu da davamiyyətlə əlaqədar statistikanı diqqətdə saxlamağı, bütövlükdə tədrisin keyfiyyətinə birbaşa onlayn baxılmasını mümkün edir.

Sonuncu edilən yenilik isə artıq “Virtual məktəb” istifadəçilərinə “Microsoft Teams” platformasından Azərbaycan dilində istifadə edə bilmək imkanının yaradılmasıdır. Artıq şagird və müəllimlərimiz ana dilində bu platformadan daha rahat istifadə edə biləcəklər. Bunun üçün isə istifadəçilərə sadəcə şəxsi səhifədə parametrlər bölməsində dil siyahısından Azərbaycan dilini, “Yaddaşda saxla və tətbiqi yenidən başlat” düyməsini seçmək tələb olunur.

Təbii ki, hər birimiz uzun illər alışdığımız ənənəvi əyani təhsilə qayıtmağımızı arzu edirik. Ancaq mövcud duruma uyğun olaraq bu gün bizlər üçün distant təhsil təhsildən kənarda qalmamaq üçün ən gözəl bir fürsətdir. Və nə yaxşı ki, ilk başdan təhsili evlərə gətirməyi düşünən “Virtual məktəb” sonunda buna nail olmağı bacarıb. Şagirdlərimiz evlərində “onlayn siniflərdə oturaraq” dərsin başlanmasını gözləyir...

# "QARABAĞın məşhur müəllimləri"




### Süleyman Rəhimov

22 mart 1900-cü ildə Zəngəzur mahalının (hazırkı Qubadlı rayonu) Əyin kəndində anadan olub. O, ibtidai təhsilini ikisinifli rus məktəbində alıb. Daha sonra texnikom və ali təhsil müəssisəsini bitirib. 1921-ci ildə Xanlıq kəndində yeni açılmış məktəbdə müəllim işləməyə başlayıb. Şuşada pedaqoji kursda oxuduqdan sonra uzun müddət Zəngəzur mahalının müxtəlif rayonlarında müəllimlik edib. 1928-ci ilin payızında Bakıya gələrək Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil alıb, eyni zamanda Qaraşəhərdə ikinövbəli savad kursunda yaşlı fəhlələrə dərs deyib.

### Əliyar Əliyev

1957-ci il dekabrın 14-də Qubadlı rayonunun Qazyan kəndində anadan olub. 1979-cu ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu fərqlənmə diplomu ilə bitirdikdən sonra bir müddət Qubadlı rayonunun Dondarlı kənd orta məktəbində idman müəllimi işləyib. O, iki il Saransk Dövlət Universitetində, daha sonra doğma kəndində pedaqoji fəaliyyətini davam etdirib.

Qarabağ müharibəsində iştirak edən Əliyar Əliyevin qəhrəmanlığı dillər əzbəridir. O, ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.







### Əbdürrəhim Haqverdiyev

1870-ci ildə Qarabağ mahalının Şuşa şəhəri yaxınlığındakı Ağbulaq kəndində anadan olub. Yazıçı, dramaturq, pedaqoq, ədəbiyyatşünas, teatr xadimi, klassik Azərbaycan ədəbiyyatının korifeyi Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) ədəbiyyatdan mühazirələr oxuyub, maarifpərvər ziyalı olaraq fəaliyyət göstərib.

Əbdürrəhim bəy Haqverdiyev xalqın maariflənməsində teatrın rolunun əvəzsiz olduğunu yazırdı: "Xalqla danışmaq, onu mədəniyyətə və maarifə çağırmaq üçün ən yaxşı vasitə teatr səhnəsi idi". Uşaqların milli-mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyə olunması, Vətənə sevginin aşılanması ədibin ən ali məqsədlərindən olub. "Ata və oğul" hekayəsində yazdığı fikir isə yazıçının həyatının əsl ifadəsidir: "Xoş o şəxsin halına ki, öləndən sonra onun adı dillərdə diri qala, ehtiram və rəhmətlə yad ola".

# Yaşadığımız günlərin qüruru




## Qəlbində QARABAĞ təşnəsi olan xalq QƏLƏBƏ əzmindədir



**Mahirə HÜSEYNOVA,**

*filologiya elmləri doktoru, professor, Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinin dekanı*

Bir neçə gün əvvəl nəinki Azərbaycan, qardaş Türkiyə,həmçinin dünyanın müxtəlif ölkə televiziyaları ilə bütün dünya oktyabr ayının 27-də Ermənistan dövlətinin iradəsi ilə Bərdə rayonundakı Qarayusifli kəndinə atılmış raketlərin öldürdüyü insanlardan biri, 7 yaşlı Aysunun dəfnini gördü. Televiziyalarla göstərilən o kadrı da gördülər ki, həyətə,sadəcə olaraq, oynamaq üçün çıxmış yeddi yaşlı balamız cəbhə bölgəsindən 55-60 kilometr uzaqdakı bir ərazidə, heç bir hərbi obyektin olmadığı bir yerdə amansızlıqla öldürülüb. Bu, düşmənin eyni üsulla oktyabrın 4-də və ondan sonra Gəncəyə, Tərtərə, Ağcabədiyə, Goranboya və digər yerlərə atdığı, həmin vaxta qədər öldürülmüş 69-cu dinc sakinlərdən növbətisi idi. Səhərisi gün düşmən kasetli mərmilərlə təchiz edilmiş raket zərbələri ilə Bərdə şəhərini yenidən hədəfə alacaq. Bu dəfə qurbanların sayı 21 nəfər olacaq, yaralıların sayı isə 50 nəfəri ötəcək.

Bu, 1991-ci ildə özünü 1918-ci ildə elan etmiş Ermənistan Respublikasının hüquqi və mənəvi varisi olaraq Cənubi Qafqazda peyda olan bugünkü Ermənistan dövlətinin əxlaq normalarının göstəricilərindən biridir. Həmin dövlətin ki, faşizmi dövlət ideologiyasına çevirmiş, Göyçə, Vedi, Naxçıvan və onlarla digər yerlərdə insan ağlına gəlməyəcək formalarda on minlərlə azərbaycanlını ancaq azərbaycanlı olduğuna görə öldürən və bununla qürurlanan Qaregin Nijdeyə, onun kimi insanlara heykəllər ucaldır, onu “milli qəhrəman” elan edir. Bu, o dövlətdir ki, elan olunduğu vaxtdan günümzə qədər - istər 1918-ci, istərsə də 1991-ci illərdə regionda müharibə və gərginlik ocağına çevrilib. Ermənistan dünyanın barmaqla sayılan dövlətlərindəndir ki, onun ideologiyasında məqsədə çatmaq üçün terror, belə, məqbul sayılır.

Bu gün, Azərbaycan Respublikasının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və 27 ildir ki, işğal altında saxladığı ərazilərinin azad olunması uğrunda gedən döyüşlərdə mülki əhalimizin terrora hədəf olması onu göstərir ki, bu dövlətin xisləti dəyişməz olaraq qalır. O ideologiyaya sadiq qaldığını daldalamaq fikrində belə olmadığını göstərən bu dövlətdə bir həqiqəti anlamırlar ki, haqq-ədalət uğrunda çarpışmaya qalxan bir milləti bu cür üsullarla tutub getdiyi yoldan döndərmək mümkün deyil.

Verdiyimiz şəhidlərin ağrısına baxmayaraq, Azərbaycan bu gün inamlı günlərini yaşayır. Xalqımızın tarixinə yazılan bu günlərin şahidi olmaq imkanını qazanmış hər bir azərbaycanlı üçün qürurlu anlardır . Məsələ ancaq onda deyil ki, 27 il əvvəl zor və ölüm təhdidi altında çıxarıldığımız müqəddəs torpaqlarımıza Azərbaycan əsgərinin çəkmələrinin izi ilə qayıdırıq, məsələ daha çox onunla bağlıdır ki, həmin 27 ilin içində güclü bir dövlət qura bilmişik və dövlətimiz pozulmuş ərazi bütövlüyümüzü bu gün bərpa edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımızın arzuları reallığa çevrilir.

O da təkzibolunmaz tarixi faktdır ki, azından, son 500 illik tariximizdə Azərbaycan xalqına Qələbə hisslərini yaşamaq nəsib olub və bu, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin, onun Ali Baş Komandanının iradəsi ilə baş verir. Onu hər bir azərbaycanlı başa düşür ki, illərlə açıq və yaxud gizli havadarlarının bəslədiyi, gələcək planlar üçün maşa kimi gördüyü düşmənlə ölüm-qalım döyüşlərinin iştirakçısıdır.

### Hərbi əməliyyatların getdiyi bir ay kifayət qədər ciddi müddət hesab oluna bilər ki, qazanılmış uğurlarımız barədə danışaq

1. *Ermənistan silahlı qüvvələrinin “keçilməz” hesab olunan müdafiə istehkamlarını adlamağımızla həmin mifi dağıtmağımız;*
2. *Dağlıq Qarabağın hələ 1919-cu ildə erməni silahlı birləşmələrinin “alınmaz qala” hesab etdikləri, Azərbaycan Cümhuriyyəti ordusunun Qarabağın içərilərinə doğru hərəkətini iki ay müddətində ləngidən Hadrutun qısa bir vaxtda azad edilməsi;*
3. *Füzuli şəhəri ətrafında düşmənin mühəndis-istehkam qurğularının məhv edilməsi ilə nəticələnən möhtəşəm hərbi qələbəmiz;*
4. *Cəbrayıl şəhəri də daxil olmaqla Cəbrayıl rayonunun, ardınca Zəngilan şəhəri və Zəngilan rayonunun işğaldan azad edilməsi və İran İslam Respublikası ilə sərhədlərimizi nəzarətə götürmək, daha sonra Qubadlı rayonunun inzibati ərazilərini və Qubadlı şəhərini düşmən qüvvələrindən təmizləməklə həmin nəzarətin funksionallığına nail olmağımız;*
5. *Cəbhədə qazanılan qələbələrdə Azərbaycan Ordusunu və Ordu ilə nəfəs alan Azərbaycan xalqında qalibiyyət duyğularını yaradaraq onu yeni qələbələrə aparılması;*
6. *Ən başlıcası, xalq-rəhbər bağlılığının yüz illərlə olmamış səviyyəyə çatdırılması.*

Əlbəttə, bütün bunlar ancaq bu günə hesablanan taktiki addımlar deyil, hesab edirik ki, gələcək qüdrətli Azərbaycan dövlətinin fundamenti üçün uğurlu başlanğıc, stereotiplərin dağıdılmasıdır.

### Bunlarla bərabər, hər bir azərbaycanlı unudulmaması vacib olan məsələləri bilir və onları yaddan çıxarmır ki

1. *Qarşımızda təşkilatlanmaq tarixindən ibrət götürüləsi düşmənin dayandığını unutmayaq;*
2. *Onu da unutmamaq lazımdır ki, həmin düşmənin təşkilatlanmaq tarixi heç də birbaşa daxili potensialı ilə deyil, türklərə və onlarla ən çox doğma tellərlə bağlı olan azərbaycanlılara qarşı yönələn güclü dövlətlərin uzağagedən siyasətinə bağlıdır;*
3. *Həmin tellərlə bağlı olduğu Rusiya 250 ildir ki, ermənilərə Cənubi Qafqazda təbii hesab etdiyi sputniki kimi baxır;*
4. *Rusiyadan 150 il sonra, Osmanlı İmperiyasının hüdudları daxilində milli və dövləti maraqları olan Fransanın diqqətini çəkən “sürüşkən” millət də ermənilər olmuşdur. O Fransa ki, 1914-cü ilin dekabrında Osmanlı Türkiyəsi ərazisində yaşayan və türklərin həmin vaxtlaracan “milləti- saddiqa” (sadiq millət) adlandırdığı ermənilərdən ibarət nizami erməni ordu birləşmələri yaradaraq Türkiyəyə qarşı müharibədə tərəf kimi qəbul edib;*
5. *1915-ci ildə üfüqdə iddiaları ilə görünən ABŞ-ın Osmanlı və Rus İmperiyalarında gələcək planları üçün ermənilər ideal dayaq nöqtəsi kimi diqqəti cəlb etmişdi. Təsadüfi deyil ki, Türkiyə hökumətinin öz vətəndaşları olan ermənilərdən gözlənilən təhlükəni minimuma endirmək üçün onları sərhəd bölgələrdən imperiyanın içərilərinə köçürmək üçün 1915-ci ilin martında qəbul etdiyi qərardan 15 gün sonra bu dövlət hərəkətə keçdi. Konstantinopoldakı erməni kilsəsinin prezident Vilsona mart ayının sonlarında bu qərarın ermənilər üçün təhlükə olduğu ilə bağlı göndərdiyi, həmin il aprelin 24-də Ağ Evə çatan teleqram tarixdə yeni avantüranın əsasını qoydu. O vaxtdan başlayaraq Amerika Birləşmiş Ştatları, bugünkü “tolerant” Fransanın təbliğat maşını üçün “24 aprel soyqırımı” mövzusu Türkiyəyə qarşı ən kəskin silaha çevrildi. Maraqlı burasıdır ki, uzun müddət bu sözdə “soyqırımı” uydurmasını yaxına qoymayan Sovet İttifaqı da kampaniyadan 50 il sonra bu şantajdan NATO Türkiyəsinə qarşı istifadəyə başladı;*
6. *Qəribə “təsadüf”, yoxsa həmin “təsadüf”in doğurduğu reallıqdır ki, bu gün də Dağlıq Qarabağ məsələsinin həlli üçün 28 il əvvəl yaradılmış ATƏT Minsk Qrupunun həmsədr dövlətləri adıçəkilən ölkələr olmaqda davam edir. Bu “təsadüfi” nəzərdə tutan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nüfuzlu dünya kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrindəki hər məqamda “vasitəçi dövlətlərin tərəfsiz olmaları” barədə sadə həqiqəti yada salır;*
7. *Və hesab etmirik ki, həmin üç “sülh göyərçin”i Cənubi Qafqazdakı yanğını söndürmək üçün dimdiyində gətirmək üçün su axtarır.*

Belə situasiyada uzun illər həmin dövlətlərin dəstəyi ilə xəyali xəritələr cızmağa sövq edilmiş, nəticədə, azğınlaşmış və “milli qəhrəman” kimi erməni tarixində qalmaq istəyən yeni nəslin iddialarını nəzərə almaq hökmən lazımdır. Onu da unutmaq mümkün deyil ki, əsası Ümummilli Lider tərəfindən qoyulmuş uğurlu xarici siyasətin davamı olaraq günümüzə qədər aparılan və səmərəliliyi özünü göstərən fəaliyyətin nəticəsi olaraq təklənməmişik. Milyonlarla azərbaycanlılardan biri kimi, qardaş Türkiyə Respublikasına, onun bu gün beynəlxalq miqyasda söz və nüfuz sahibi olan Prezidentinə minnətdarlığımızı ifadə edərək deyə bilərik ki, bu təklənməməkdə Türkiyə dövlətinin və şəxsən cənab Rəcəb Tayyib Ərdoğanın misilsiz rolu unudulmayacaqdır. Həmçinin Pakistan İslam Respublikasının, onun siyasi rəhbərliyinin, sadə pakistanlıların Azərbaycana göstərdiyi dəstək hər bir azərbaycanlının yaddaşına minnətdarlıq hissləri ilə həkk olundu. Dünyanın digər ədalətin yanında dayanan ölkələrinə xalqımızın haqq sözünü, sadəcə olaraq, dinlədiklərinə görə təşəkkür edirik. Dünyada Azərbaycanı, necə varsa, eləcə, bütün mahiyyəti ilə tanıdan və öz xarici siyasətində onu təqdim edən cənab Prezidentimizə sağ olun deməklə bərabər, xalqının hər məqamda onun yanında olduğunu, ətrafında sıx birləşdiyini bəyan edirik. Onu da bildiririk ki, cəbhədəki məğlubiyyətlərindən quduzlaşaraq dinc sakinləri hədəf alan, mülki əhalidə xof və vahimə yaradacağını zənn edən düşmən bu dəfə də yanılır. Qəlbində Qarabağ təşnəsi olan XALQ qürurumuz olan, Kəbəmiz, Kərbalamız qədər qiymətli Vətən parçasına qovuşmaq üçün hər cür məhrumiyyət, itkilərə hazırdır və QƏLƏBƏ əzmindədir.

Təki, Vətən bütöv və var olsun!

Cənab Prezidentimiz, şəxsən mən inanıram ki, taleyin Sizin üçün yazdığı bu missiya uğurlu sonluqla bitəcək və Sizə yazılmış o Missiya ilə Cənubi Qafqazda əbədi sülhün Müəllifinə çevrilmək də o Tale üçün yazılıbdır.

Uğurlar yol yoldaşınız olsun, cənab Prezident!

QƏLƏBƏ Sizinlədir, Ali Baş Komandan!

Mixail Qorbaçovun 1985-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi vəzifəsinə seçilməsi və psevdoislahatlara başlaması istər SSRİ-də, istərsə də dünyada dağıdıcı hadisələrin olacağını qaçılmaz edirdi. Zəif iradəli Baş katibin qətiyyətsizliyi qısa müddətdən sonra xaosun yaranacağından xəbər verirdi. Yaranmış vəziyyətdən öz xeyirlərinə istifadə etməyin mahir ustası olan ermənilərin illər boyu arzuladıqları, həyata keçirmək üçün fürsət axtardıqları şərait yaranmışdı. Lakin danılmaz həqiqətdir ki, nəhəng siyasətçi, xarizmatik şəxsiyyət Heydər Əliyevin Kremldə yüksək vəzifədə olması onların planlarının qarşısını alırdı. İlk növbədə Heydər Əliyevi Kremldən uzaqlaşdırmaq lazım idi və bəri başdan deyək ki, onlar bu niyyətlərini həyata keçirə bildilər. Qorbaçov "perestroyka"sının müəlliflərindən hesab edilən akademik Abel Aqanbekyanın Parisdə erməni diasporu qarşısında Dağlıq Qarabağa yüksək statusun verilməsini SSRİ rəhbərliyi ilə razılaşdırıldığını bəyan etməsi məlum münaqişənin ideoloji başlanğıcı oldu. Bir qədər sonra Dağlıq Qarabağdakı mitinqlər, ermənilərin törətdiyi Sumqayıt hadisələri, azərbaycanlıların Ermənistandan - öz əzəli torpaqlarından, dədə-baba yurdlarından qovulması artıq Qarabağ münaqişəsini qaçılmaz edirdi. 1990-cı ilin 20 Yanvar faciəsi hadisələrin kulminasiya nöqtəsi oldu.

# Münaqişədən müharibəyə gedən yol

**Asəf ZAMANOV,**
*ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, fizika-riyaziyyat elmləri doktoru, professor*

**Ramiz ƏLİYEV,**
*ADPU-nun Ümumi psixologiya kafedrasının müdiri, psixologiya elmləri doktoru, professor*

Lakin zaman azərbaycanlılar üçün münasib deyildi. Tez-tez baş verən hakimiyyət dəyişikliyi, yüz minlərlə qaçqın və köçkün, onların problemlərinin həlli və digər məsələlər gənc ölkəni çıxılmaz vəziyyətə salmışdı. Demək olar ki, Dağlıq Qarabağ Bakının nəzarətindən kənarda qalmışdı. Amma bu, erməniləri qane etmir, onların daha çox əraziləri öz nəzarətinə almaq istəklərini artırırdı. Nəhayət, ermənilər havadarlarının köməyilə Dağlıq Qarabağa heç bir aidiyyəti olmayan Laçını, Kəlbəcəri, Ağdamı, Cəbrayılı, Füzulini, Qubadlını və Zəngilanı işğal etdilər. Münaqişənin birinci mərhələsi məğlubiyyətlə nəticələndi. Böyük güclərin, beynəlxalq təşkilatların qərarları ilə davranışları arasında kəskin fərq göstərirdi ki, onları problemin həlli yox, kövrək sülhün və sabitliyin olması maraqlandırırdı. Qarşılıqlı kompromis təklif olunur, haqsız olan daha çox dəstəklənirdi...

Cəzasızlıq, ermənilərin xeyrinə birtərəfli mövqe onları daha da azğınlaşdırır, Azərbaycan ərazilərini zəbt etmək istəyini gücləndirirdi. Xalqımız sanki ikili hiss yaşayırdı: torpaq itkisi və həsrəti, ümidsizlik, qürurun tapdalanması və eyni zamanda düşdüyü vəziyyətlə barışmamaq, vəziyyətdən çıxış yolları axtarmaq.

Lakin hər dövrdə dünya güclərinin üst-üstə düşməyən, kəsişən maraqları, beynəlxalq aləmdə öz yerini axtaran dövlətlərin məqsəd və məramları olur. Tarix heç də bütün xalqlara yolun hamarını qismət etmir. Hər xalq öz dövlətini qurmaq, sərhədlərini möhkəmləndirmək, milli ideallarını gerçəkləşdirmək üçün çətinliklərdən keçir, qurbanlar verir, məhrumiyyətlər yaşayır. Ağır sınaqlar dövründə həmin xalqların uğurlarına vəsilə olanlarsa, məhz tarixi şəxsiyyətlərdir.

1993-cü ildə siyasi uzaqgörənliyi, diplomatik gedişləri, zəngin təcrübəsi ilə dünya liderlərini belə heyran qoyan Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldi və həm daxili, həm beynəlxalq vəziyyəti, həm də ölkəmizin iqtisadi və digər imkanlarını nəzərə alaraq 1994-cü ilin may ayında atəşkəsə nail oldu. Cəmiyyəti gələcəyə hazırlamaqdan ötrü ardıcıl tədbirlər həyata keçirməyə başladı. Qaçqın və köçkünləri yerləşdirmək, ölkədə sabitlik yaratmaq, dağılmış iqtisadiyyatı bərpa etmək lazım idi.

Həm ölkənin iqtisadiyyatını dirçəltmək, həm də müstəqilliyini gücləndirmək baxımından "Əsrin müqaviləsi"nin imzalanması böyük əhəmiyyətə malik hadisə oldu. Həqiqətdir ki, həmin vaxt müstəqil Azərbaycan az tanınırdı. Dağlıq Qarabağın tanınmasından isə söhbət belə gedə bilməzdi. Bu səbəbdən Ulu Öndər həmin vaxtlar səfər etdiyi ölkələrə özü ilə Azərbaycanın xəritəsini aparır, Dağlıq Qarabağın harada, hansı ərazidə yerləşdiyini dünyaya göstərirdi. Lakin dünya dövlətləri bütün bunların fərqində deyildi. Üstəlik, müxtəlif adlarla mobil şəkildə birləşmiş erməni diasporu lazım olan bütün vasitələrdən istifadə edir, hətta bunun üçün nüfuzlu adamların ailəsinə zorla daxil olmaqdan belə çəkinmirdi. Məsələn, Nobel mükafatı laureatı, beynəlxalq aləmdə yüksək nüfuza malik Andrey Saxarovla ailə qurmuş milliyyətcə erməni Boner Əlixanyanın vasitəsilə ermənilər öz xeyirlərinə akademikdən maksimum istifadə edirdilər. Bax, belə yollarla ermənilər özlərinin məğlubedilməzliyinə həm başqalarını inandırmış, həm də özləri inanmışdılar.

Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ATƏT-in Minsk qrupu yaradılanda əvvəl Rusiya və Fransanın həmsədrliyi təsdiq olunmuşdu. Siyasət ustadı, Ulu Öndər Heydər Əliyev bu həmsədrliyin yaxşı nəticə verməyəcəyini bilirdi. Lakin həmin dövrdə həmsədrlərin dəyişdirilməsi mümkün deyildi. Fransa Prezidenti ilə görüşü zamanı Jak Şirak Heydər Əliyevi inandırmağa çalışmışdı ki, o, ədalətli, tərəfsiz mövqe tutacaq. Heydər Əliyevin cavabı isə belə olmuşdu: "Bəs sonra?.." Məhz bundan sonra Heydər Əliyevin təkidi ilə Minsk qrupu həmsədrliyinə ABŞ da daxil edildi. Ümummilli Liderin nə qədər haqlı olduğunu isə zaman göstərdi. Bölgədə Rusiya ilə ABŞ-ın maraqları heç vaxt üst-üstə düşə bilməz. Fransanın hazırkı Prezidenti Emmanuel Makronun mövqeyi isə hər kəsə məlumdur.

2003-cü ildə Azərbaycanın Prezidenti seçilən İlham Əliyev haqqında ən səlis və dəqiq fikri Heydər Əliyev söyləmişdi: "Mən İlhama özüm qədər inanıram". Xalqın bəxti yenə gətirmişdi. Gənc, yüksək səviyyəli təhsil almış, Avropanın nüfuzlu təşkilatlarında Azərbaycanı ləyaqətlə təmsil edən İlham Əliyevin torpaq, xalq sevgisi ona güc, qüvvət və inam verirdi. Prezident İlham Əliyev ilk gündən həm dünya güclərinə, ermənilərin himayədarlarına, həm də Azərbaycan xalqına bəyan etdi ki, münaqişə bitməyib, sadəcə onun birinci mərhələsi başa çatıb.

Cari ilin iyul ayında Tovuz döyüşləri Qarabağ savaşının pik nöqtəsini yaxınlaşdırırdı. 2016-cı il aprel döyüşlərindəki məğlubiyyət, Tovuz döyüşlərindəki uğursuzluq ermənilərin "məğlubedilməz ordu", "Ohanyan səddi" və s. əfsanələrinə son qoymuşdu. Özlərinin ruh yüksəkliyini, qalib olduqlarını sübut etmək üçün erməni baş nazirinin arvadının Azərbaycan tərəfə silah tuşlaması, N.Paşinyanın Şuşada sərxoş vəziyyətdə rəqs etməsi, "Qarabağ Ermənistandır. Nöqtə" deməsi isə problemin danışıqlar yolu ilə həll edilməsinə olan azacıq ümidi də yox etmişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bütün bunlar barədə dünya güclərinə səslənməsi və əvəzində həmin çağırışların susqunluqla qarşılanması, üstəlik, Ermənistanın yeni müharibəyə başlayıb yeni ərazilər işğal etmək istəyini gizlətməməsi ölkəmizə başqa yol qoymurdu. Beynəlxalq təşkilatların, böyük dövlətlərin kompromis istəyi də öz mənasını itirmişdi. İki fərqli fikir, iki barışmaz mövqe qarşı-qarşıya dayandıqda kompromis yalnız müvəqqəti xarakter daşıyır. Kompromis heç vaxt məsələnin tam, qəti həlli ola bilməz. Qarşıdurma zamanı barışdırıcı mövqe tutanlar özləri də uğursuzluğa düçar olurlar. Tarix sübut edir ki, belə məsələlər tam və qəti, həm də ədalətlə, obyektiv həll olunmadıqda dərinləşdirilmiş şəkildə sonrakı mərhələyə daxil olur. Görəsən Ermənistan Dağlıq Qarabağ münaqişəsini müharibəyə çevirərkən nəyə ümid edirdi? Özünün "məğlubedilməz ordu"sunamı, Rusiyanın, Fransanın müdafiəsinəmi, bəlkə erməni lobbisinə? Bütün hallarda unudurdular ki, 2020-ci ildir və Azərbaycanın qətiyyətli Prezidenti, güclü ordusu, azərbaycanlıların doğma torpaqlarına qayıtmaq əzmi, Türkiyə kimi ədalətli ölkələrin siyasi-diplomatik dəstəyi var. Bir də yaddan çıxarırdılar ki, onların bütün düşüncəsi miflərdən, yalanlardan ibarətdir və bunların da sonu yoxdur.

Miflərdən söz düşmüşkən. Tarixi təcrübə göstərir ki, milli mif özündə üç amili birləşdirir: bioloji, sosial və psixoloji. Yəni ermənilər milli mifin əsasını təşkil edən subyektiv və obyektiv olanları birləşdirir, ondan şərait yarananda maksimum istifadə edirlər. Ermənilər üçün obyektiv olan böyük məqsəd "dənizdən dənizə olan ərazilərdə böyük erməni dövləti yaratmaqdır". Böyük məqsədə çatmaq üçün hər bir şəraitdən istifadə edərək xırda məqsədləri həyata keçirmək istəyirlər. Hər iki məqsəd daim onların şüuruna hakim kəsilir. Onların düşüncəsinə görə, uğur qazanmaq üçün istənilən vasitədən istifadə etmək məqbul sayılır. İlk növbədə müxtəlif ölkələrə səpələnmiş erməniləri hansısa bir ərazidə toplamaq lazımdır. Belə münbit şərait Rusiya və İran arasında 1813, 1828-ci illərdə baş verən müharibələr və bağlanmış sülh müqavilələri oldu. Müxtəlif yerlərdən ermənilər Dağlıq Qarabağa köçürüldülər. Artıq ermənilərin kompakt yaşamaları üçün əsas müəyyənləşdirildi və real ərazi yarandı. Bu, həm çar Rusiyası, həm də ermənilər üçün əlverişli idi. Belə vəziyyətdə hər iki tərəf vasitə idi və müəyyən məqsədə xidmət edirdi: çar Rusiyası üçün ermənilər burada olan xanlıqlara təsir etmək vasitəsi idi. Ermənilər isə rusların köməyi ilə möhkəmlənir, tədricən müstəqillik əldə etmək imkanı qazanırdılar. Ermənilər yaranmış hər bir vəziyyətdən öz xeyirlərinə istifadə etməyə çalışır, istəklərinə əsasən nail olurdular. Nəticədə Azərbaycan əraziləri hesabına özlərinin müstəqil dövlətini (Ermənistan Respublikasını) və Dağlıq Qarabağ Muxtar Vilayətini yaratdılar. Sonrakı illərdə Ermənistan Respublikası sayılan azərbaycanlıların əzəli torpağından 500 mindən artıq azərbaycanlı köçürüldü və ya qovuldu.

Sentyabrın 27-dək ermənilər təxəyyüllərində yaratdıqları bu "qələbə"lərin nəşəsini yaşayırdılar. Şuşada rəqs edir, toplantı keçirir, azərbaycanlıları Qarabağa qonaq dəvət edirdilər. Unudurdular ki, azərbaycanlıların ləyaqəti, milli hissləri ilə oynamaq təhlükəlidir. Azərbaycan xalqı ləyaqət hissi ilə oynamağa heç kimə imkan verməz. Gözləmirdilər ki, özləri üçün təsəvvür etdikləri kiçik münaqişə azərbaycanlılar üçün Vətən müharibəsinə çevrilər.

Müharibədə qalib gəlməyin ən vacib şərtlərindən biri isə qələbəyə inamdır. Xalqımız Ali Baş Komandana, Ordumuza inanır. Əsgərlərimizin ardıcıl qələbələri xalqımızı ruhlandırır. Döyüş meydanında məğlub olması ilə barışa bilməyən Ermənistan isə dinc əhaliyə hücum edir. Lakin bu, bizi nəinki sarsıdır, əksinə, daha da mətinləşdirir. Çünki bizim savaşımız ədalət, haqq uğrundadır.

Danılmaz həqiqətdir ki, 30 ilə yaxın müddət ərzində Azərbaycan münaqişənin sülh yolu ilə həll olunması üçün mümkün olan bütün vasitələrdən istifadə olunmasına çalışıb. Belə ki, erməni tərəfinin davamlı qeyri-konstruktiv mövqe göstərməsinə baxmayaraq, Azərbaycan daim diplomatik həll variantına üstünlük verib və danışıqlar prosesində fəal iştirak edib. Hərbi potensialının Ermənistanla müqayisədə əhəmiyyətli dərəcədə yüksək olmasına baxmayaraq, Azərbaycan hər zaman beynəlxalq hüququn prinsiplərinə, ümumbəşəri dəyərlərə sadiqliyini göstərib, münaqişənin sülh yolu ilə tənzimlənməsində maraqlı olduğunu öz konstruktiv mövqeyi ilə təsdiq edib.

Təəssüf ki, BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsi, eləcə də BMT Baş Assambleyası, Avropa Parlamenti, İslam Konfransı Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar tərəfindən münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dair qəbul edilən sənədlərin icra olunmaması münaqişənin sülh yolu ilə nizamlanmasına imkan verməyib.

# Tarixi ədalət təmin edilir



**Şahin BAYRAMOV,**
*Mingəçevir Dövlət Universitetinin rektoru*

Bu dövr ərzində münaqişənin həlli məqsədilə keçirilən danışıqlarda erməni tərəfi hər dəfə texniki məsələləri və danışıqların formatının dəyişdirilməsini qəsdən gündəmə gətirməklə, eyni zamanda, cəbhəboyu ərazilərdə və hətta Azərbaycan - Ermənistan dövlət sərhədi istiqamətində davamlı təxribatlar törətməklə danışıqlar prosesinə xələl gətirməyə, problemin həllindən diqqəti yayındırmağa, beynəlxalq hüquq normalarına və prinsiplərinə məhəl qoymadan işğala və təcavüzə əsaslanan status-kvonu qorumağa çalışıb. Zəbt olunmuş tarixi Azərbaycan torpaqlarında qeyri-qanuni məskunlaşma aparmaqla, tarixi, dini və mədəni abidələri talan etməklə, qədim yaşayış yerlərinin adlarını dəyişdirərək tarixi saxtalaşdırmaqla, iqtisadi və təbii resursları qanunsuz mənimsəməklə, böyük həcmdə hərbi texnika və qoşun cəmləşdirməklə və digər kriminal fəaliyyətlər həyata keçirməklə işğalçı dövlət faktiki olaraq danışıqları imitasiya etdiyini və yeni ərazi iddialarında olduğunu nümayiş etdirib.

Azərbaycanın çoxsaylı çağırışlarına baxmayaraq, açıq təcavüzkar siyasətinə görə adekvat beynəlxalq təzyiqin göstərilməməsi və heç bir sanksiyanın tətbiq edilməməsi işğalçı dövləti beynəlxalq hüquq normalarına hörmətsizliyi davam etdirməyə bir qədər də "cəsarətləndirmiş"dir. Belə ki, kriminal xunta rejiminin "andiçmə" mərasiminin Şuşada keçirilməsi, qondarma parlamentin bu qədim şəhərimizə köçürülməsinə qərar verilməsi və münaqişənin həllinin baza prinsiplərinə zidd olaraq "Qarabağ Ermənistandır və nöqtə" kimi sərsəm bəyanat səsləndirilməsi işğalçı dövlətin törətdiyi aşkar terrorçuluq fəaliyyətlərinə, qanlı əməllərə və soyqırımı cinayətlərinə görə cəzasızlıq səbəbindən azğınlaşmasından irəli gəlib.

Cari ilin iyul ayında Azərbaycan - Ermənistan dövlət sərhədinin Tovuz rayonu ərazisində işğalçı dövlət tərəfindən törədilən növbəti təxribat əməlləri yuxarıda qeyd olunan mənfur siyasəti bir daha açıq şəkildə göstərdi. Cəbhə zonasından xeyli uzaqda yerləşən və çoxsaylı strateji enerji və nəqliyyat xətlərinin keçdiyi Tovuz rayonunun hədəfə alınması düşmənin yeni münaqişə ocaqları yaratmaq və mövcud vəziyyəti daha da kəskinləşdirmək niyyətindən xəbər verir.

İyul döyüşlərində Azərbaycan Ordusu tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində xeyli sayda itkilərə məruz qalan düşmənin cari ilin avqust ayında mülki əhaliyə qarşı terror aktları törətmək məqsədilə ölkəmizə diversiya qrupu göndərməsi işğalçı dövlətin təcavüzkar və terrorçuluq siyasətindən heç zaman əl çəkməyəcəyini bir daha təsdiq etdi.

BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ermənistanın yeni ərazilər uğrunda müharibəyə hazırlaşdığını bildirməsi və beynəlxalq ictimaiyyəti onları hərbi təcavüzdən çəkindirməyə çağırması faktiki olaraq daha genişmiqyaslı növbəti erməni təxribatının proqnozu kimi qiymətləndirilə bilər. Hadisələrin sonrakı gedişatı dövlət başçısının proqnozlarını bir daha doğrultdu.

Cari ilin 27 sentyabr tarixindən etibarən Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək ordumuzun mövqelərini və yaşayış məntəqələrimizi ağır artilleriyadan istifadə etməklə intensiv atəşə tutması ermənilərin terrorçu, faşist və işğalçı xislətinin daha da dəhşətli olmasını ortaya qoydu. Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Ordumuzun mülki əhalinin təhlükəsizliyini təmin etmək və işğalçı erməni silahlı qüvvələrinin döyüş fəallığını azaltmaq məqsədilə həyata keçirdiyi sülhə məcburetmə əməliyyatları qısa müddət ərzində möhtəşəm uğurlar əldə olunmasına imkan verdi.

Qürurverici haldır ki, Ali Baş Komandanımızın qətiyyəti sayəsində xalqımız həsrətində olduğu qələbə sevincini yaşadı. Dövlət başçısı cənab İlham Əliyevin hər birimizin həyat amalına çevrilmiş "Qarabağ Azərbaycandır!" şüarı öz təsdiqini tapmış oldu. Bu gün üçrəngli bayrağımızın Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Suqovuşanda, Xudafərində və işğaldan azad olunmuş digər yaşayış məntəqələrimizdə dalğalanması hər bir azərbaycanlıda böyük fəxarət hissi yaradıb. 27 sentyabr - 30 oktyabr tarixləri ərzində şanlı Ordumuz tərəfindən 4 şəhər, 3 qəsəbə və 185 kənd erməni işğalından azad olunub.

Hazırda Azərbaycan əsgərinin şücaəti sayəsində 27 illik həsrətə son qoyulur, tarixi ədalət bərpa olunur və nəhayət, işğala və təcavüzə əsaslanan status-kvo dəyişdirilir.

Təəssüf doğuran odur ki, döyüş meydanında Azərbaycan əsgərinin qəhrəmanlığı qarşısında aciz qalan və böyük itkilər verərək geri çəkilməyə məcbur olan mənfur düşmən beynəlxalq konvensiyalarda təsbit olunmuş müharibə qaydalarını kobud şəkildə pozur. Belə ki, mülki əhalimizin yaşadığı məntəqələri atəşə tutan xain düşmən cəbhə xəttindən uzaqda yerləşən Gəncə, Mingəçevir, Bərdə, Qəbələ, Kürdəmir və digər şəhərlərə də çoxsaylı raket zərbələri endirib. Erməni vandallığını bir daha nümayiş etdirən Gəncə, Bərdə və Tərtərdəki terror aktları və qadağan olunmuş silahlardan istifadə ilə törədilən müharibə cinayətləri Xocalı qətliamının davamı olmaqla 91 mülki şəxsin, o cümlədən uşaqların və qadınların həyatına son qoydu. Lakin Azərbaycan xalqının qələbə əzmini azaltmağa və ölkəmizdə sabitliyi pozmağa yönələn düşmənin bu cəhdləri uğursuzluğa düçar oldu.

Moskva, Paris, Vaşinqton və Cenevrədə razılaşdırılmış humanitar atəşkəsi kobudcasına pozan xain düşmənin heç bir əxlaq normalarına uyğun gəlməyən qanlı əməlləri sayəsində dünyasını dəyişən vətəndaşlarımızın qisasının qəhrəman əsgərlərimiz tərəfindən döyüş meydanında layiqli şəkildə alınması xüsusi qeyd olunmalıdır. Azərbaycan əsgərinin sarsıdıcı əks-hücum həmləsindən təlaşa düşən düşmən tarixi torpaqlarımızdan qorxaqcasına qaçır.

Bu günlərdə Azərbaycan erməni təcavüzünə və terroruna qarşı hərbi, siyasi, diplomatik, informasiya və digər platformalarda möhtəşəm qələbələr əldə etməklə özünün müstəqillik tarixinin ən şərəfli və şanlı səhifələrini yazır. 30 ilə yaxın müddətdə işğal altında olan tarixi Azərbaycan torpaqlarının azad edilməsi ilə mövcud status-kvo dəyişdirilir, regionda sülh və təhlükəsizliyin bərqərar olmasında ölkəmizin qüdrətini göstərən və milli maraqlarımızı tam təmin edən yeni strateji mənzərə formalaşır.

Ədalətə söykənən və haqq mübarizəsinə əsaslanan Xalq-Dövlət-Ordu birliyi mənfur düşməni qorxuya salıb. Eyni zamanda "Bir millət, iki dövlət" düşüncəsindən güc alan Azərbaycan-Türkiyə həmrəyliyi hər birimizdə böyük qələbəyə əminlik hissi yaradıb. Bütün bunlar Azərbaycan bayrağının tezliklə Şuşada, Xankəndidə və işğalda olan digər tarixi torpaqlarımızda dalğalanacağına inamı artırır.

Hazırda hər bir Azərbaycan vətəndaşı apardığımız haqq savaşında fəal iştirak etməyə və Vətən müharibəsinə öz töhfəsini verməyə çalışır. Sevindirici haldır ki, döyüş meydanında əldə etdiyimiz qələbələr informasiya cəbhəsində qazandığımız uğurlarla müşahidə olunur və möhkəmlənir. Azərbaycan həqiqətlərinin, düşmən tərəfindən törədilən təcavüz aktlarının dünya ictimaiyyətinə çatdırılması işində vətəndaşlarımızın, kütləvi informasiya vasitələrimizin və dövlət qurumlarımızın göstərdiyi əzmkarlıq və həmrəylik qürurvericidir.

Ayrıca qeyd olunmalıdır ki, döyüş meydanında əsl sərkərdə şücaəti göstərən Ali Baş Komandanımız böyük qətiyyəti ilə erməni saxtakarlığına qarşı informasiya mübarizəsində də öncül mövqedə dayanır. Belə ki, dünyanın aparıcı kütləvi informasiya vasitələrinə gündəlik olaraq geniş müsahibələr verən dövlət başçısı dəqiq tarixi faktları, beynəlxalq hüquqi sənədlərin konkret müddəalarını və digər əsaslandırılmış arqumentləri səsləndirməklə informasiya cəbhəsindəki qələbəmizi də təmin edir. Məhz bu müsahibələr düşmən tərəfindən davamlı olaraq dünya mediasına ötürülən "fake news"ların uğursuzluğa düçar olmasına imkan verir.

Şübhə yoxdur ki, Azərbaycan xalqının böyük ruh yüksəkliyi şəraitində davam edən Vətən müharibəsində əldə edəcəyimiz şanlı qələbə müasir tariximizdə yeni səhifələrin açılmasını şərtləndirmiş olacaqdır. Bu baxımdan, sevincini yaşadığımız parlaq qələbələrin memarı möhtərəm Prezidentimizin aşağıdakı fikirləri Azərbaycanın haqlı mövqeyini aydın ifadə edir: "Azərbaycan xalqı üçün bu müharibə azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir. Ermənistanın işğalçı qüvvələri Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazilərindədir. Buna heç nə ilə haqq qazandırmaq olmaz".

# Erməni generalını boğaraq öldürən cəsur ƏSGƏR



## Qarabağ savaşı tarixinə general Polad Həşimovun qisasını alan qəhrəman kimi düşdü



Bu ikisini çox sevdi, bir anasını, bir də Vətənini. İkisini də canı bahasına qorudu. Birincisi üçün təhsilini, karyerasını, ikincisi üçün bütün həyatını, ömrünü qurban etdi. Ona fəxrlə “oğul” desinlər deyə, bir anası, bir də Vətən.

İkinci Fəxri Xiyaban... Bu aralar qapısında hər gün qələbəlik olur.

Məzarların birinin başında başdan-ayağa qaraya bürünən qadın var. Həzin bir nalə çəkir. “Məni tək qoyma, gəl”, deyir. Elə hey çağırır, çağırır...

Bu səs sentyabrın 27-dən başlayan Vətən Müharibəsinin ilk şəhidlərindən birinin - Cəbrayıl Dövlətzadənin anasının səsidir. Cəbrayılı çağırır. Arxasını, dayağını, tək güvən yerini gözləyir dizini yerə qoyub. Niyə də gəlməsin. Dostu Yalçının yuxusuna gəlib, anasının çağırışınamı gəlməyəcək? Yalçın onu evə dəvət etsə də, rədd edib. Gedəcəyi yer varmış. “Naxçıvana şəhid aparıblar, gedib kömək edəcəm”, - deyib.

Cəbrayılın anası Məleykə xanım 40 gündür ki, günə “İkinci Fəxri Xiyaban”dan, balasının yeni mənzilindən başlayır. Onsuz harda olmağından asılı olmayaraq, hər an Cəbrayılla danışır, onun səsini eşidir, darıxdıqca onu görür. İstəyəndə düyməyə basıb səsini eşidir, istəyəndə şəklinə baxır, istəyəndə danışdığına, güldüyünə, söhbətinə, əl işlərinə. Cəbrayıl gedəli onun dünyasını telefonuna köçürüb. İndi Cəbrayıl onun telefonunda, telefonu isə başucundadı.



### Ana balası haqqında...

Mərd, döyüşkən, haqsızlığa qarşı susmayan, dostu üçün savaşan, özündən zəifləri qoruyan... Nə müsbət keyfiyyət axtarsan, tapardın onda. Tanıyanlar elə deyir. Bəs, anası?

Anası Məleykə Məmmədzadə sentyabrın 11-də hərbi xidmətdə olan oğlunun 19 yaşını qeyd etdi. Heç ağlına da gəlmədi ki, bundan sonra elə həmişə belə olacaq. Doğulduğu günü o olmadan qeyd edəcək. Hardan bilsin axı. Oktyabrın 2-də hərbi xidmətə başlamağının bir ili tamam olacaq, məzuniyyətə anasını görməyə gələcəkdi. Anaya bəlli olan plan bu idi.

Ancaq elə olmadı. 19 illik ömrünə bir dastana sığmayacaq qədər böyük qəhrəmanlıq yerləşdirən, Vətən müharibəsinin ilk günlərində millətinin qəlbində özünə əbədi yer tutan şəhid Cəbrayıl Dövlətzadə. İndi İkinci Fəxri Xiyabanda ən mərkəzi yerlərdən birinin sahibidir. Bu yerə çatana qədər keçdiyi 19 illik qısa yolu anasından öyrənməyə çalışırıq. Ana danışır, görünən odur ki, həmin 19 ilin hər biri bir ömrə bərabər olub. O, Cəbrayılı böyüdərkən tək olub, himayəsində 3 uşaqla birlikdə savaşıb həyatın qarşısına çıxartdığı çətinliklərlə.

### Dərsə gedən bir...

Məleykə Məmmədzadənin sözlərinə görə, bacısı, sonra Cəbrayıl dünyaya gəlib. Ancaq bacısının tamamilə əksi olub Cəbrayıl. Utancaq, üzüyola, cavab qaytarmayan, mehriban, bir sözlə, canayatan bir uşaq. O anadan olanda ailəsi Sumqayıtda yaşayırdı. Sumqayıtda da əlinə çanta alıb məktəbə gedib. Birinci sinfə “Təfəkkür” liseyində rus dilində başlayıb. Elə başlayan kimi də uğur dalınca uğur qazanıb. Məktəbdə ilk ilini uğurla başa vurub. İkinci sinfə B.Mehdiyev adına Qubadlı şəhər 2 nömrəli tam orta məktəbində davam edib. Bu keçid balaca Cəbrayıl üçün bəlkə asan olmayıb, ancaq müəllimi Afilə xanımın köməyi ilə öhdəsindən gəlib. Qısa müddət içərisində sinif yoldaşları ilə arasındakı birillik geriliyi aradan qaldıraraq onlara çatıb və sinfin ən yaxşı şagirdlərindən birinə çevrilib. Afilə Ağayarova həmin mərhələdə şagirdinin ən yaxın köməkçisi olub: “Sinfimə II sinifdən daxil oldu. Azərbaycan dilində danışırdı, ancaq yazıb oxuya bilmirdi. Onunla əlavə məşğul olurdum. Qısa müddət ərzində sinif yoldaşlarına çatdı və sinfin əlaçılarından biri oldu. Sadəcə təhsili ilə yox, xasiyyəti ilə də sevimlimizə çevrildi. Çox gözəl rəsmlər çəkirdi. Çox bacarıqlıydı. Tez qavrayır, qısa müddətdə öyrənirdi”.

Afilə müəllim Cəbrayıl şəhid olandan bəri özünə yer tapa bilmir: “Cəbrayılı sevirdim, ona görə ona ölümü yaraşdıra bilmirəm. Bu xəbər mənə çox pis təsir etdi. Qardaşım da I Qarabağ savaşında şəhid olub. Cəbrayıl mənə qardaşımın şəhid olduğu o günü xatırlatdı”.

Çinarə İbrahimli isə Cəbrayılın sinif yoldaşı olub: “Sinfimizə sonradan gəlmişdi. Çox yaxşı oğlan idi. Yaxşı əl qabiliyyəti vardı. Çox gözəl rəsm çəkirdi. Rəsmlərimi mən də ona çəkdirirdim. Etiraz etmədən çəkirdi. Zarafatcıl idi. Bir yerdə olanda həmişə gülürdük. Bizi hər zaman güldürən o oğlanın bu son ağlatmağı çox sarsıdıcı oldu”.

Çinarə deyir ki, onunla sonuncu dəfə “Son zəng”də bir yerdə olublar. VIII-IX sinfi başqa məktəbdə oxusa da, məzuniyyət gecəsini onlarla bir yerdə olmağa üstünlük verib: “Başqa məktəbə getsə də, əlaqəmiz kəsilməmişdi. “Son zəng”də də bir yerdəydik. Çox əyləndik. Nə yaxşı ki, o günü videoçəkilişlə əbədiləşdirmişdik. Videoda Cəbrayılın danışığı, gülüşü bizə xatirə olaraq qaldı”.

Cəbrayılın sinif yoldaşı olan oğlanların hamısı hazırda onun yarımçıq qoyduğu yolu davam etdirir. Hər biri ön cəbhədə savaşır.

### Mahnı bəstələyir, rep oxuyur, gitara çalırdı

Bir sözlə, məktəbli Cəbrayıl çox bacarıqlıydı. Ərəb əlifbasını bir neçə günə öyrənmişdi. Əl işləri, rəsmləri görənləri heyrətə salırdı. Mahnı bəstələyir, rep oxuyur, gitara çalırdı. Riyazi bacarığı çox yüksək səviyyədə idi. Hələ idmanı demirəm. 9 il cüdo ilə məşğul olmuşdu. Yaxşı üzür, dəqiqələrlə suyun altında nəfəssiz qala bilirdi. Ev boyayır, sınan, qırılan əşyaları təmir edirdi. Bir sözlə, əlindən gəlməyən heç nə yox idi. Bir çox bacarıqları marağından, həvəsindən, istedadından qaynaqlanırdısa, bir çoxu da həyatın uşaq yaşlarında qarşısına çıxardığı çətinlikləri dəf edərkən əldə etdiyi, qazandığı bacarıqlar idi.

Günlərin birində baş verən bir qəza Cəbrayılı balaca çiyinlərini anasının üzərinə düşən yükün altına verməyə məcbur edib: “VIII sinfə kimi yaxşı qiymətlərlə oxumuşdu, əlaçı idi. Ancaq VIII sinfi bitirdiyi yay günlərindən birində mən iş yerində qəza keçirdim. Ayağımdan aldığım ağır travma nəticəsində uzun müddət yataqdan qalxa bilmədim. Məndən başqa qazananın olmaması yatağa düşməyimlə mövcud çətinliyimizi daha da artırdı. Cəbrayıl işləyib evə çörək pulu gətirmək məcburiyyətində qaldı”.

### Cəbrayılın arzuları

Nəhayət, hərbi çağırış yaşı çatdır. “VƏTƏN çağırır”, - deyib hərbi xidmətə Sərhəd Xidmətində xüsusi təyinatlı batalyonda başlayır. Beləliklə, o qədər də uzun olmayan hərb yolu 2019-cu ilin oktyabrında həqiqi hərbi xidmətə çağırışçı olaraq qatılması ilə start götürür. Xidmət dövründə hərb sənətinə marağı daha da böyüyür. Həqiqi hərbi xidməti başa çatandan sonra müddətli hərbi xidmətə başlamaq arzusu baş qaldırır. Bu məqsədlə razılaşma da əldə olunur. Planı bu idi ki, başladığı bu yol davam etsin. Ancaq onun planı fələyin planı ilə üst-üstə düşmədi. Anası Məleykə xanım deyir: “Cəbrayıl hərbiçi olmaq istəyirdi. Xüsusi təyinatlı dəstədə qulluq etməyi arzulayırdı”.

Artıq bu arzusuna çatmışdı. Özündən kiçik qardaşına işi olduğuna dair söz də vurmuşdu. Böyük arzularını anasından gizlətməmişdi: “Ən sevdiyi, arzuladığı motoskilet idi. Ev və motoskilet alacağını deyirdi. Planı bu idi ki, Cəlilabadda işləyib orada qalsın. “Burdan ev alsam, sən də gələrsənmi?”, - deyə soruşmuşdu məndən. Mən də gələcəyimi söyləmişdim. Ancaq özü gəldi”.

### Qəfil zəng

Bu gəliş 16 yaşında ana olan, 40 yaşına çatmamış “şəhid anası” statusu qazanan Məleykə xanımın ömründən ömür alıb: “O gün ömrümdən azı 10 il getdi. Keşkə getsin. Xatırlamaq istəmədiyim, ancaq unuda da bilmədiyim bir gün oldu o gün. Gündüz özümü yaxşı hiss etmirdim. Çox narahat idim. Ömrümdə ilk dəfə məni ağlamaq tutmuşdu. Cəbrayılın ona zəng etməyimdən xoşu gəlmirdi. Ona görə zəng etmək istəmədim. Onunla əlaqəsi olan uşaqlara zəng elədim ki, bəlkə bir xəbər alam. Heç kimdən heç nə öyrənə bilmədim. Sentyabrın 28-də axşam saat 10-a işləyirdi. Zəng gəldi. Hərbi komissarlığa gəlməyimi istədilər. Anladım ki nəsə olub.

### “Onu da bir gün itirəcəyimdən çox qorxurdum”

Onsuz özünü tənha hiss edən ana üçün dünya bir yana, Cəbrayıl bir yanadır: “Dünyada təkəm elə bil. Halbuki hamı var, bir o yoxdu. Bacısının, qardaşının, hamımızın qoruyucu mələyi kimiydi. Arxamda dağıydı el bil. Ona güvənir, güvəndiyim qədər də qorxurdum. Qardaşım Yadullaya bənzədirdim onu. Dayısına çox oxşayırdı. Belə yaxşı oğul, yaxşı insan olmasını istəyirdim. Qardaşım kimi, onu da bir gün itirəcəyimdən çox qorxurdum”.

Ən böyük qorxusu başına gəldi ananın. Ancaq təsəllisi də var: “O elə-belə səbəblərdən ölə bilməzdi. Az yaşasa da, o qədər çox yaxşı işləri vardı ki, Allah Taala onu mükafatlandırdı, şərəfli ölüm verdi. Qadınlarımızın, qızlarımızın, general Polad Həşimovun qisasını aldı”.

### Döyüş tapşırığı yerinə yetirildi, cənab Ali Baş Komandan!

Murovda strateji əhəmiyyətə malik düşmən postunun alınması tapşırığı verilmişdi. Bu tapşırığı yerinə yetirəcək şəxslər xüsusi seçildi. 28 sentyabrda əks-hücum əməliyyatında 11 zabitlə birlikdə komanda məntəqəsi uğrunda döyüşdə əsgər Cəbrayıl Dövlətzadə də vardı. Bir neçə saat çəkən həmin döyüşdə əllərindən gələni etmişdilər. İrəlidə erməni generalı və polkovniki öldürüb ürəyində alovlanan qisasını almaq imkanı vardı. O, bu fürsəti əldən verə bilməzdi. Zabit yoldaşlarına “Siz gəlməyin, yolunuzu gözləyəniniz var. Subayam, mən gedəcəyəm”, deyərək irəli atılıb. Düşmənlə əlbəyaxa döyüşə girərək erməni generalını və polkovnikini boğaraq öldürüb.

Beləliklə, qəhrəman əsgər Dövlətzadənin yolunun sonu Vətən müharibəsinin ilk günlərinə təsadüf etdi. 27 sentyabrda başlayan döyüşlərə o da xüsusi təyinatlı kimi qatıldı və Qarabağ savaşı tarixinə general Polad Həşimovun qisasını alan əsgər kimi düşdü.

O gündən adı dillərdədir döyüşçü Cəbrayıl Dövlətzadənin. Hər azərbaycanlı ailəsində onu tanıyır, sevir, barəsində qürurla danışırlar. Cəbrayılın qohumu Zöhrə Bayramova: “Qızım onu daha yaxşı tanıyır. Bir yerdə çox olurdular. Onu axırıncı dəfə hərbi xidmətə getmədən gördüm. Bizimlə görüşməyə gəldi. Heyif ondan. Çox bacarıqlı, qabiliyyətli, tərbiyəli, düşüncəli oğlan idi. Deyirdi ki, anasının onunla fəxr etməyini istəyir. Artıq 1 il idi ayrılmışdıq ondan. Hərbi xidmətə getməyinin bir ili tamam olurdu. Sevinclə onun məzuniyyətə gələcəyi günü gözləyirdik. 2 günə gəlməliydi. Düzdü, daha tez gəldi, ancaq bizim gözlədiyimiz şəkildə yox. Şanla-şöhrətlə qayıtdı”.

Şəhidliyin mübarək, döyüşçü Cəbrayıl Dövlətzadə. Qanın tökülən o torpaqlar artıq sənin kimi igid Vətən oğullarının oylağıdır. Ruhun şad olsun!

**Ruhiyyə DAŞSALAHLI**




# Biz birlikdə güclüyük

Sifai SƏFƏROVA

Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının Teatr şöbəsinin yaradıcı kollektivi öz yaradıcılıq auditoriyasını genişləndirməkdə davam edir. 2017-ci ildən etibarən bütün layihələrini İncəsənət Gimnaziyası ilə birgə həyata keçirməyə qərar verən istedadlı rəssam Günay Zebic (Mehdizadə) ötən müddət ərzində yeni layihələrə start verib.

"Qobu Park-3" yaşayış kompleksində "Xarı bülbül" Təlim və İstehsalat Birliyində COVID-19 koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunmuş "Biz birlikdə güclüyük!" əsərinin nümayişi ilə bərabər eyniadlı ədəbi-bədii kompozisiya da keçirilib. Tədbirdə BMT İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Allesandro Frakasettinin xanımı Jasmin Frakasetti və oğlu Zachary Frakasetti, Xorvatiyanın Azərbaycandakı səfiri Branko Zebic ailəsi ilə birlikdə, Hindistanın Azərbaycandakı səfiri Bavitlunq Vanlalvavnanın xanımı və qızı iştirak ediblər. Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının rəhbərliyi tədbirə online qoşulub.

Mərasimdə gimnaziyanın "Teatr" şöbəsinin əsasən məcburi köçkün müəllim və şagirdləri tərəfindən hazırlanmış "Xarı bülbül" tamaşası nümayiş olunub. Sonra gimnaziyanın şagirdləri Azərbaycan, ingilis və xorvat dillərində şeirlər səsləndiriblər.

Tədbirin sonunda məktəblilərə təşəkkürnamə və hədiyyələr təqdim olunub.

"Biz birlikdə güclüyük!" əsərinin növbəti təqdimatı "Fairmont" otelində baş tutub. Tədbirdə Təhsil Nazirliyinin, səfirliklərin, QHT-lərin, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər. Təqdim olunan əsər haqqında təsviri və tətbiqi sənət nümayəndələri yüksək fikir söyləyiblər. Tədbirin sonunda çoxsaylı layihələrin rəhbəri Günay Zebic (Mehdizadə) öz əsərini Koronavirusla Mübarizəyə Dəstək Fonduna hədiyyə edib. Ədəbi-bədii kompozisiya gimnaziyanın "Teatr" şöbəsi şagirdlərinin rəngarəng çıxışları ilə davam edib.

### "Bayrağımız qürur mənbəyimizdir"

Xalqımızın zəfər yürüşündən, qələbə əzmindən bəhs edən növbəti layihə Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının zalında baş tutub. Rəşadətli Ordumuzun əzmkar yürüşünü özündə əks etdirən "Cəngi" sədaları ətrafı bürüyüb. Ədəbi-bədii kompozisiya özündə iki cəbhəni əks etdirib: dünyanı lərzəyə gətirən koronavirus pandemiyasını və bizim əzəmətli qələbəmizi, qələbəyə doğru gedən xalqımızın əzmkar yürüşünü. Kompozisiya "Vətən mənə oğul desə nə dərdim, mamur olub qayasında bitərdim!", "Bayrağımız-qürur mənbəyimizdir" vətənpərvərlik mövzusuna həsr olunub. Ədəbi-bədii kompozisiya zamanı G.Zebic şagirdlərə "ustad dərsi" keçib. Bundan ilham alan teatr şöbəsinin gənc rəssamları qoruyucu maskaların üzərində Azərbaycanın üçrəngli bayrağını həkk ediblər. Kompozisiya vətənpərvərlik mövzusunda olan şeir, mahnı və rəqslərlə müşayiət olunub. Tədbirin ən yaddaqalan anlarından biri də "Əsgər marşı" mahnısının sədaları altında səhnəyə rəşadətli əsgərlərimizə məktub göndərmək üçün poçt qutusunun gətirilməsi olub. Teatr şöbəsinin "Balaca yazarları" qəhrəman əsgərlərimizə səmimi ürək sözlərini ifadə edərək yazdıqları məktubları poçt qutusuna atıblar. Alqış sədalarına qərq olan gimnaziyanın akt zalında şagirdlərin gurur hissi ilə "Azərbaycan ordusuna eşq olsun!", "Qarabağ Azərbaycandır!" şüarları ətrafa yayılıb.

Tədbir "Qarabağ şikəstəsi"nin gur sədaları altında yekunlaşıb.


# Etibarsız sayılır

**Bakı şəhər** 277 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Hüseynli Zaur Akif oğluna verilmiş A-203060 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 18 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Cavadzadə Nigar Elxan qızına verilmiş B-289180 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**10 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2000-ci ildə Yəhyayev Rafiq Hüseynəli oğluna verilmiş AB-048212 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Gülgəzli kənd tam orta məktəbi 1986-cı ildə bitirmiş Yolçuyev Famil Əhməd oğluna verilmiş AK-268277 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Pensər kənd 2 nömrəli tam orta məktəb-liseyin IX sinfini 2016-cı ildə bitirmiş Bayramova Nazan Orxan qızına verilmiş A-692861 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Seləkəran kənd tam orta məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Talıbova Fərqanə Üzeyir qızına verilmiş B-038405 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Tərtər şəhər** 5 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Abbasov Nazim İsmayıl oğluna verilmiş A-484130 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Müsüslü kənd tam orta məktəbi 1994-cü ildə bitirmiş Əliyeva (Hacıyeva) Pərvanə Vaqif qızına verilmiş A-067517 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Təzəkənd tam orta məktəbi 2016-cı ildə bitirmiş Muradlı Nurlan Emin oğluna verilmiş A-525936 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Oksford Skul** tam orta ümumtəhsil məktəbi MMC 2018-ci ildə bitirmiş Muradlı Nigar Elman qızına verilmiş E-090333 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 17 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Namazov Əfqan Şahvələd oğluna verilmiş B-223336 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 18 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş İsmayılov Tələt Adil oğluna verilmiş A-115936 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Haftonu kənd tam orta məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Nərimanova Şəmsiyyə Mütəllim qızına verilmiş A-756488 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 114 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Əliyeva Fatimə Məmməd Nəbi qızına verilmiş E-137786 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Xanqərvənd kənd tam orta məktəbi 1996-cı ildə bitirmiş Muradov Asəf Vilayət oğluna verilmiş A-108575 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2001-ci ildə Abasov Vüsal Nizami oğluna verilmiş A-093758 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 132-134 nömrəli Təhsil Kompleksini 2016-cı ildə bitirmiş Cəfərli İbrahim Kamran oğluna verilmiş A-496243 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Dərviçlər kənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Cəlilov Nəsrulla Əmir oğluna verilmiş A-001397 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 60 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Ağamirov Mircavad Telman oğluna verilmiş E-151073 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Yanğın-Texniki Məktəbi** tərəfindən 2000-ci ildə Alışov Azər Azad oğluna verilmiş AB-II-060722 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 152 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Cavadova Vüsalə Məhəddin qızına verilmiş A-646044 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İ.M.Seçenov adına Moskva Dövlət Tibb Universiteti** (Bakı filialı) tərəfindən 2016-cı ildə Kazımova Sara İman qızına verilmiş qiymət kitabçası tapıldığı üçün etibarlı sayılır.

**Bakı şəhər** 10 nömrəli tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Əliyev Qəhraman Əlikram oğluna verilmiş A-881524 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 255 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Zeynalov Orxan Elman oğluna verilmiş A-511698 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəmir Yolu Liseyi** tərəfindən 1998-ci ildə Vəliyev Ceyhun Vahid oğluna verilmiş AB-026988 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** Süleymanlı kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Səfərov Sərxan Abbas oğluna verilmiş A-360368 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 81 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Rzayeva İzzət Fəxrəddin qızına verilmiş A-701735 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecin rəhbərliyi və kollektivi Faiq Məmmədova anası

**SİRAYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6765, **Sifariş** 2600

**Məsul növbətçi:** O.Mustafayev



Dünyanı bürümüş koronavirus pandemiyasının ilk dalğası 160 ölkədə 1,5 milyard təhsilalanı evdə təhsil almaq məcburiyyətində qoyub. Avropa Təhsil Fondu ( ETF) 29 tərəfdaş ölkədə təhsil müəssisələri tərəfindən koronavirus pandemiyasına qarşı həyata keçirilən tədbirlərin monitorinqini keçirib. Bu analitik icmal həm təhsil prosesinin yolu və məkanı, həm də bütün bir nəslin əmək bazarına inteqrasiyası və cəmiyyətin rifahı naminə uğurla işləmək bacarığı üzərində uzunmüddətli təsir göstərə biləcək bəzi sosial dəyişiklik nümunələrini müəyyən etməyə imkan verib. Sənəddə COVID-19 pandemiyasından sonra davamlı sosial-iqtisadi inkişafda əsas rol oynayan aşağıdakı beş meyil müəyyən edilib:

# Pandemiyadan necə çıxmalı?

**Oruc MUSTAFAYEV**

### Sağlamlıq və rifahın ən üstün prioritet olduğu tədris planları

## *Avropa Təhsil Fondu:* “Təhsil sistemləri sağlamlıq və rifahın ən üstün prioritet olduğu tədris planlarını və proseslərini tərtib etməlidir”

Hesabatda qeyd olunur ki, kiçikyaşlı təhsilalanlar və yeniyetmələr üçün pandemiya onlayn öyrənməkdən daha çox məna kəsb edə bilər. Ən gənc minilliallar - z və alfa nəsli üçün bu aylar dünyaya baxış və ünsiyyət qurma tərzini müəyyənləşdirir. Onlar ünsiyyət qurma, öyrənmə üçün daxili motivasiya, potensial karyera və həyat yolunun inkişafı haqqında müxtəlif bilikləri mənimsəyirlər.

ETF-nin sosial-iqtisadi hesabatında bildirilir ki, əmək bazarına daxil olmaqda çətinliklə üzləşən gənc məzunlar və iş axtaranlar üçün dondurulmuş təcrübə proqramları, şagird və gənc məzunlara digər formalarda dəstək verildiyi üçün indi daha da yüksəkdir. Eyni zamanda, tələbin zəifləməsi və daha ehtiyatlı işəgötürmə strategiyaları orta müddətdə məşğulluq imkanlarını məhdudlaşdıra bilər. “ Bir Zoom söhbətindən digərinə keçərkən gəncləri narahat edən qeyri-müəyyənlik və stres, yeni bilik və bacarıqların əldə edilməsinə və sosial inteqrasiyaya kömək etmir”.

Hesabatda qeyd olunur ki, Türkiyə COVID-19 pandemiyası zamanı açıq bir şəkildə böhranı idarə etmə strategiyasının bir hissəsi olaraq fiziki və zehni sağlamlığa üstünlük verən ölkələrdən biridir. Ölkədə məsafədən təhsil alan maksimum uşaq (eşitmə qüsurlu uşaqlar daxil olmaqla) sayına çatmaq üçün milli rəqəmsal təhsil platforması EBA və Türk Radio və Televiziya Təşkilatının (TRT) mənbələrindən istifadə edilib. Əlavə olaraq tələbələr, valideynlər üçün bir dəstək xətti, psixoloji və sosial rəhbərlik tətbiqi və veb brauzer də istifadəyə verilib. Bu təlimatda məktəblərin bağlanması zamanı uşaqların, valideynlərin və müəllimlərin qarşılaşdıqları problemlər haqqında daha ətraflı məlumat verilib və stresin bu şəraitdə necə ümumi bir şərt olduğu vurğulanıb.

### Gənclərin təhsil və müvafiq bacarıqlara sahib olmaq hüququ vardır

Rifah insanlar üçün getdikcə daha vacib bir prioritet halına gəlir, az məskunlaşan bölgələrdə həyata marağının artması və COVID-19 pandemiyası sonrasında evdə işləmək üçün yeni imkanlar yaranır. Şirkətlər davamlı təcrübələrə doğru irəlilədikcə gənclər üçün iş imkanları artır. Bu məsələnin arxa tərəfi ondan ibarətdir ki, təhsil strukturları bəlkə də fərqli zaman zonalarında geniş bir coğrafi bölgünün logistik problemlərini davam etdirməli olacaqlar.

Bu şərtlərdə köçürülə bilən, universal və kəsişən bacarıq məcburidir. Təhsil sistemləri 21-ci əsrin bacarıqlarını (elm və kompüter savadlılığı, yaradıcılıq, əməkdaşlıq, maraq, problem həll etmə) digər mövzularla bərabər səviyyədə qurmalıdır. Teleworking (uzaqdan çalışma) işlərinin böyüməsi ilə birlikdə müəyyən növ sosial və emosional zəkaya, qlobal, transmilli, uzaq komandaların iş birliyini təsirli edəcək qarşılıqlı fəaliyyətə ehtiyac var.




COVID-19 peyvəndi ilə iqtisadiyyatın bərpa olunacağı və əvvəlki qaydaya düşəcəyi fərziyyəsi bəlkə də həddən artıq sadə yanaşmadır. Bir çox dəyişənlər hələ müəyyənləşdirilmədiyindən, gənclər kimi həssas qrupların diqqətdən kənarda qalma riski yüksəkdir.

### Qarışıq təlim gələcəkdir

Gələcəyin rəqəmsal və onlayn öyrənmə ilə bağlı olduğunu söyləmək fikri cəlbedici olsa da, ETF-nin məktəblərdəki sosial şagirdlərdən aldığı saysız-hesabsız rəylər gələcəyin qarışıq tədris formaları ilə bağlı olacağını göstərir. Qarışıq öyrənmə çox ehtiyac duyulan ömürboyu öyrənmə üçün ən əlverişli kontekstdir. İqtisadi şərtlər, xüsusən də pandemiyanın təsiri ilə daim dəyişir və modul kurslara marağın artdığını görürük. COVID-19 böhranına cavab tədbirinin əsas hissəsini ömürboyu təhsilə keçid və öyrənmənin hamı üçün əlçatan olması təşkil edir.

### Nəyi ölçmək, yaxşılaşdırmaq olar

Təhsilalanlar yalnız məsafədən əməkdaşlıq, layihə tapşırıqları və onlayn qarşılıqlı əlaqə vasitəsilə təlimdən sonra onları gözləyən proseslərə hazırlaşa bilərlər.

Avropa Komissiyası məktəblərin rəqəmsal istifadəsini qiymətləndirməyə kömək edən onlayn özünü qiymətləndirmə vasitəsi olan SELFIE ilə cavab verib. SELFIE ETF, Avropa Peşə Təhsili İnkişaf Mərkəzi (Cedefop) və UNESCO-nun Təhsildə İnformasiya Texnologiyaları İnstitutu ilə ortaq şəkildə hazırlanıb. 14 ölkədə 650 təhsil müəssisəsində 67000 istifadəçinin iştirakı ilə 2017-ci ildə sınaq rejimində tətbiq olunan platformadan artıq 670 min insan istifadə edir, bu, özündə 57 ölkədən 7300 təhsil müəssisəsini birləşdirir. SELFIE anketlərinə cavab verməklə təhsil müəssisələri özlərinin rəqəmsal imkanlarının vəziyyətini qiymətləndirə bilərlər. SELFIE üzvü olan məktəblər özlərini əks etdirmə yolu ilə bütün maraqlı tərəflərin fikirlərini dinləyərək inkişaf edə bilərlər.

### Təhsilin keyfiyyətinin yüksəldilməsinin açarı

Hesabatda qeyd olunur ki, qarşıya qoyulmuş məqsədlərdən heç biri bütün maraqlı tərəflərin - təhsil nümayəndələrindən əmək nazirliklərinə, işəgötürənlərə və QHT-lərə qədər genişmiqyaslı əməkdaşlığı olmadan əldə edilə bilməz. Genişmiqyaslı dövlət-özəl tərəfdaşlıq güclü iş yeri, öyrənmə platformaları yarada bilər. Xüsusilə peşə təhsili üçün iş yerində öyrənmə vacibdir. Bu seçimin məsafədən təhsil kontekstində sabit olması üçün bütün şagirdlərin yeni təşkilat formaları ilə yanaşı genişləndirilmiş və virtual reallıq həllərinə də çıxışı olmalıdır.

Əməkdaşlıq həm də tələbələrin lazımi cihazları, rabitə və evdə öyrənmək üçün uyğun bir mühit təmin etməsini tələb edir. Nəticə etibarilə, ETF yerlərdə müəyyənləşdirilmiş ehtiyaclara əsaslanaraq dövlət qurumları arasında resurs paylaşma layihələrinə ehtiyac olduğunu da vurğulayır.

ETF pandemiya ilə mübarizədə hökumətlərin, vətəndaş cəmiyyətinin, işəgötürənlərin, eyni zamanda, valideynlərin və şagirdlərin təhsil prosesinə verdiyi dəstəyi böyük töhfə kimi qeyd edir.

### Avropa Təhsil Fondunun hesabatında Azərbaycanda teledərslərin uğurlu tətbiqi qeyd olunur

- Dövlət televiziyasında 11 mart tarixindən etibarən ümumtəhsil və 30 martdan isə peşə məktəbləri üçün yayımlanan, yüksək ixtisaslı müəllimlər tərəfindən bir çox fənləri əhatə edən teledərslər uğurlu sayılır.
- 2016-cı ilin dekabrında telekommunikasiya və informasiya texnologiyalarının inkişafı üzrə Milli Yol Xəritəsinin qəbul edilməsi rəqəmsal tədris strategiyaları üçün zəmin yaratmağa kömək edib.
- 2008-ci ildə qurulan AzEDUNET İKT-nin inkişafına və böhran dövründə təhsil ehtiyaclarına səmərəli reaksiya verilməsinə kömək edən bir sıra aparıcı aktyorlardan biridir. AzEDUNET ölkədəki tələbələrin 85%-ni və müəllimlərin 75%-ni əhatə edən 2500-dən çox təhsil müəssisəsini birləşdirir.
- 2018-ci ilin aprelində qəbul edilmiş yeni “Peşə təhsili haqqında” Qanun və rəqəmsal infrastrukturun yaxşılaşdırılması üçün bu sahəyə 10 milyon avro dəyərində vəsaitin ayrılması COVID-19 böhranı zamanı onlayn təhsilə uğurlu keçid yolunu açıb.
- Təhsil Nazirliyinin Microsoft ilə birgə təklif etdiyi “Virtual məktəb” layihəsinin aprel ayının əvvəlində həyata keçirilməsinə başlanması pandemiyaya qarşı mübarizənin əsas tədbirlərindən biridir. Qeydiyyatdan keçən şagirdlər müvafiq sinfə göndərilir və burada həftəlik televiziya dərslərində tədris olunan mövzularla bağlı ev tapşırığı təklif olunur.

**#LearningConnects:**

- Azərbaycan şanslı idi, çünki valideynlər təhsildə mühüm rol oynayırlar. Çoxları uşaqlarının onlayn təhsilini izləmək üçün müəllimlərlə əməkdaşlıq edir. “Mədəniyyət” telekanalında və digər platformalarda istifadəyə verilən onlayn kurslara elektrik texnikası, tikinti, mexanika, avtomobil texnikası və İKT daxil olmaqla səkkiz ixtisas üzrə 26 dərs daxildir.
- 7-15 dəqiqəlik dərs video nəzəriyyə və praktika arasında tədrisi bölüşdürməyə çalışır, əşyaların necə işlədiyini və necə göründüyünü göstərir. Bu, çətindir, çünki tələbələrin videoları izlədiyinə heç kim əmin deyil. Valideynlər şagirdlərin video üzərində işləmələrini və ya dərsləri istifadə etdikləri platformalara yükləmələrini təmin etməlidirlər.
- Onlayn kurslar sürətli düzəlişdir və ehtimal ki, mövcud formada davamlı deyil. Biz pandemik vəziyyətin nə qədər davam edəcəyini bilmirik, amma indiyə qədər bu, praktik olaraq həyata keçirilən yeganə qərardır.